www.paralel.az

Paralel

İctimai-siyasi qəzet

1

iyul
2021-ci il

№ 223-224 (3517-3518)
Qiyməti 20 qəpik

TƏBİİ QAZIN QİYMƏTİ ARTIRILDI

Dünən Tarif Şurası ənənəsini pozaraq gündüz saatlarında SOCAR-ın müraciətinə həsr olunmuş iclas keçirib. Hər halda TŞ qiymətqaldırma siyasətinə sadiq qalıb. Əgər əvvəllər əhaliyə limitlə verilən (2200m3) qaz 10 qəpikdən hesablanırdısa, Şuranın yeni qərarı ilə bu limit 1200m3 endirilib. Bundan artıq istifadə üçün vətəndaş hər kuba görə 20 qəpik ödəməli olacaq.

● GünXəbər

Lavrov və Çavuşoğlu görüşdü: Qarabağ müzakirəsi

Dünən Antalya şəhərində Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu ilə rusiyalı həmkarı Sergey Lavrov arasında görüş olub.

Tərəflər iki ölkə arasındakı əlaqələri və beynəlxalq gündəmin aktual məsələlərini müzakirə ediblər. Belə ki, XİN başçıları əməkdaşlığın inkişafını, təhlükəsiz turizm məsələlərini, "Sputnik V" vaksininin Türkiyədə tətbiqini, Suriya və Liviya məsələləri də daxil bir çox regional problemlərin həlli yolları barədə söhbət ediblər.

Tərəflər, həmçinin Cənubi Qafqazda, xüsusilə də Qarabağdakı vəziyyətlə bağlı fikir mübadiləsi aparıblar.

Putin: "Heç kim Qarabağdakı böhranın böyüməsində maraqlı deyil"

V.Putin vətəndaşlarla birbaşa yayım zamanı bu barədə danışıb.

O deyib: *"Sülh və dostluq içində yaşayırıqsa, yalnız təhlükəsizlik sahəsində deyil, insanların həyatını yaxşılaşdırmaq üçün də şərait yaradacağıq. Mən Qarabağda bir çox insanın ehtiyac duyduğu iqtisadi və sosial inkişafı nəzərdə tuturam. Silahlı qarşıdurmanın başlayacağına dair daimi narahatlıqla yaşamaq mümkün deyil, bunu çox yaxşı başa düşürük. Bu, həm Ermənistanın, həm də Azərbaycanın liderlərinin bunu başa düşməsi deməkdir".*

Rüşvət və korrupsiya dövlət və xalq üçün böyük təhlükədir

Rüşvətə «nəfəs» verən yüksək vəzifə sahibləridir

Səh.3

"Kənddən şəhərə" devzi altında möhtəkirlik

Müstəqil laboratoriyasız qida təhlükəsizliyinə nail olmaq mümkün deyil

Səh. 4

Tibbi sığortanın tətbiqi ... anarxiyanı daha da dərinləşdirir



Sağlam gəlib xəstə çıxdığın xəstəxanalar

Səh. 6

Üçüncü artıqdır

Peter Maurer: Bu problemi Bakı və İrəvan özləri həll etməlidir

Beynəlxalq Qırmızı Xaç Komitəsinin (BQXK) prezidenti Peter Maurer bildirib ki, Azərbaycanda saxlanılan erməni hərbçilərin statusu məsələsi İrəvan və Bakı tərəfindən həll olunmalıdır. P.Maurer "İzvestiya" qəzetinə verdiyi müsahibədə bu fikri səsləndirib.

"Müəyyən irəliləyiş əldə edildi, onlardan bəziləri evlərinə dönüblər. Eyni zamanda, bəzi saxlanılanlarla bağlı mübahisələr davam edir: onlar hərbi əsir sayılırmı, statusları nədir və geri qayıda biləcəklərmi. Azərbaycan hökuməti bizə məlumat verdi ki, məhbusların statusu ilə bağlı Ermənistan tərəfi ilə fikir ayrılığı var. Bakı və İrəvan bu problemi mütləq özləri həll etməlidir".

P.Maurer qeyd edib ki, BQXK öz təcrübəsini tərəflərlə bölüşə, onlara məsləhət verə bilər, ancaq hökumətlər qərar verməli və statusu sona çatdırmalıdır. O, həmçinin, qeyd edib ki, Qırmızı Xaç hər iki tərəflə daimi kontaktdadır: *"Ümid edirəm ki, gələcəkdə Ermənistan və Azərbaycanda saxlanılan bütün məhbuslar üçün problemə dair həll yolu tapmaq mümkün olacaq".*

Maurer təşkilatın nümayəndələrinin Bakıda saxlanılan ermənilərə baş çəkdiyini bildirib, lakin onların saxlanılma şəraiti barədə şərh verməyib, çünki bu "BQXK üçün konfidensial bir proses"dir.

Bundan əlavə, o bildirib ki, Qırmızı Xaç Qarabağ istiqamətində işin maliyyələşdirilməsini 4-5 dəfə artırıb: əvvəllər büdcə təqribən 10-11 milyon dollar idisə, indi 50 milyon dollardır.

Bu gündən plastik qablar qadağan olunur

İyulun 1-dən Azərbaycanda birdəfəlik istifadə üçün nəzərdə tutulan plastik qarışdırıcı çubuq, çəngəl, bıçaq, boşqab və stəkanların idxalı, istehsalı, istifadəsi qadağan edilir.

Qadağa 2020-ci il noyabrın 26-da Prezident İlham Əliyevin imzaladığı *"Azərbaycanın İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi barədə"* fərman əsasında tətbiq edilir.

Sənəddə deyilir ki, iyulun 1-dən ölkə ərazisində polietilen torbaların, birdəfəlik istifadə üçün nəzərdə tutulan plastik qarışdırıcı çubuq, çəngəl, qaşıq, bıçaq, boşqab və stəkanların idxalına son qoyulacaq.

Fərmanın müddəaları polietilen torbalara münasibətdə 2021-ci il yanvarın 1-dən, birdəfəlik istifadə üçün nəzərdə tutulan plastik qarışdırıcı çubuq, çəngəl, qaşıq, bıçaq, boşqab və stəkanlara münasibətdə isə 2021-ci il iyulun 1-dən qüvvəyə minir.

"5 İL BİTƏN GÜN XANKƏNDİNƏ GİRƏCƏKLƏR..."

ABŞ nəşrinin erməni baş redaktoru

Dağlıq Qarabağın sülhməramlıların nəzarətindəki ərazilərinin gələcək taleyilə bağlı ermənilərin narahatlığı günbəgün artır. Təkcə Ermənistandakı deyil, Qərb ölkələrindəki ermənilər də həmin ərazilərdə yaşayan erməni əhalisinin gələcyinə dair pessimist fikirlər səsləndirirlər.

Erməni diasporunun ən tanınmış və fəal nümayəndələrindən biri, ABŞ-da nəşr olunan «The California Courier» qəzetinin təsisçisi və baş redaktoru olan Arut Sasunyan erməni mətbuatına açıqlamasında Qarabağda qalan ermənilərin gələcəyinin qaranlıq olduğunu bildirib.

Sasunyan Nikol Paşinyanın seçkidə qalib gəlməsinin xalqın iradəsinin təcəssümü saydığını deyib, lakin onun idarəçiliyinin Qarabağın ermənilərin əlindən birdəfəlik çıxması ilə yekunlaşacağını qeyd edib: *"Seçkinin nəticəsi Ermənistan əhalisinin qərarıdır və biz bu qərara hörmətlə yanaşmalıyıq. Ancaq Qarabağdakı məğlubiyyətdən sonra mən ümid edirdim ki, Paşinyan istefaya gedəcək. Bu, Ermənistan üçün ən yaxşı ssenari olardı..."*

Sasunyan deyib ki, Paşinyan İlham Əliyevlə diplomatik mübarizədə çoxlu səhvlərə yol verib və mina xəritələrinin verilməsi də bu səhvlərdən biridir: *"Sonuncu dəfə 15 əsirə görə 97 min minanın xəritəsi verildi ki, bu da kobud səhv idi. Sözsüz ki, əsir düşən ermənilərin ailələri sevinirlər, lakin bu formatın özü səhvdir... Əliyevin hansı oyun qurduğu aydındır. Bu cür davam etsə, Əliyev yeni güzəştlər tələb edəcək və təəssüf ki, həmin güzəştləri alacaq..."*

Erməni diasporunun liderlərindən biri olan Sasunyan qeyd edib ki, Ermənistan nə Qarabağda, nə də Zəngəzurda Azərbaycan qarşısında güc göstərə bilməyib və bu cür davam etdikcə, həm Ermənistan, həm də "artsax" real təhlükə ilə üzüzə qalacaq: *"Rusiya sülhməramlılarının "artsax"da(Qarabağ-red.) 5 illik xidmət müddətindən artıq 8 ay keçib. 5 illik müddət bitən gün azərbaycanlılar stepanakertə(Xankəndi-red.) girəcəklər. Çünki erməni tərəfi nə Qarabağdakı müharibədə, nə də indi Sünikdə(Zəngəzur-red.) güc göstərə bilməyib".*

Sasunyan Paşinyanın əvəzinə Ermənistana yeni rəhbərin gələcəyi təqdirdə vəziyyətin ermənilərin xeyrinə dəyişə biləcəyini deyib. Lakin bu rəhbərin kimliyilə bağlı konkret ad çəkməkdən imtina edib.

Göründüyü kimi, *"revanşistlər"* təkcə Ermənistanda deyil, Qərb ölkələrində yaşayan ermənilər arasında da kifayət qədərdir. Onların guya Qarabağdakı ermənilərin taleyinə acımaları, səs-küy qaldırmaları isə sözsüz ki, rus sülhməramlılarının Qarabağda mümkün qədər çox qalmasına zəmin yaratmaq üçündür.

Cəlal

Bakının İrəvan siyasəti sülhə yönəlib

Azərbaycan və Türkiyənin birgə hərbi təlimləri 44 günlük müharibədən sonra Ermənistan üçün bir dərs effekti verəcək. Azərbaycan bununla öz gücünü, qüdrətini nümayiş etdirir. Ermənistanın isə diz üstə çökmüş vəziyyətindən özbaşına qalxmağa gücü yoxdur.

Bu sözləri Rusiya Strateji Araşdırmalar İnstitutunun eksperti Vladimir Yevseyev Ermənistan mərbuatına müsahibəsində bildirib.

Onun sözlərinə görə, Rusiya Ermənistanda ikinci hərbi baza açmaq istəyir və hazırda Ermənistanın başqa seçimi yoxdur: *"İndiki mərhələdə Azərbaycan müharibəyə istiqamətlənməyib. Bakı Ermənistanla sülh razılaşması istiqamətində irəliləyir. Buraya Azərbaycanın ərazi bütövlüyü, hazırkı sərhədlərin tanınması, demarkasiya prosesi, dəhlizlərin açılması və s. daxildir",* - deyə Yevseyev bildirib.



Putin Əsədi «xərcləyir»

"Rusiya Bəşər Əsədsiz Suriya üçün yeni plan hazırlayıb"

Bunu Əsəd rejimi adına işləyən keçmiş diplomat Saqir əl Mülhim iddia edib.

Qeyd edilib ki, Rusiyanın tələblərini qarşılamaqda çətinlik çəkən və üzünü İrana çevirən Bəşər Əsəd Vladimir Putin ilə anlaşa bilməsə "rus plan"ı işə düşəcək: *"Bəşər Əsədin hiylə etdiyi və xalqı təhdid etməklə udduğu seçkilərdə uğurlu olub-olmaması əhəmiyyətli deyil. Qərb və beynəlxalq qurumlar seçkiləri və Əsədi istəmir. Rusların razılığı ilə edilən bu seçkilər Qərbdə Əsədin sonunu hazırladı".*

Diplomat Suriyada olan dövlətlərin razılaşma əldə etdiyini, İrana bağlı qüvvələrin təmizlənəcəyi və Suriyada yeni hökumətin qurulacağının yaxın zamanlarda elan olunacağını da idddia edib.

Bəşər Əsədin siyasi mühacir kimi İngiltərə vətəndaşlığına sahib qadınla evli olması səbəbindən İngiltərədən siyasi sığınacaq istəyəcəyinin mümkün olduğunu, amma İngiltərənin suriyalılara etdikləri cinayətlər səbəbindən Əsədi ədalət mühakiməsindən qoruyamayacağını diqqətə çatdıran Saqir əl Mülhim ehtimal edir ki, Əsəd İran, Kuba və ya Venesueladan sığınacaq istəyə bilər.

Keçmiş diplomat əlavə edib ki, problemin həllinin ilkin mərhələsində hərbi şura ilə yanaşı siyasi şura formalaşdırılacaq, bura müxalifət nümayəndələri daxil ediləcək və onun bazasında yeni hökumət qurulacaq.

Rüşvət və korrupsiya dövlət və xalq üçün böyük təhlükədir

Rüşvətə «nəfəs» verən yüksək vəzifə sahibləridir

Bəşəriyyətin hazırda mübarizə apardığı, lakin hələ müsbət nəticə əldə edə bilmədiyi rüşvət və korrupsiya azalmır, əksinə getdikcə güclənir.

Tarixçilərin tədqiqatı sübut edib ki, rüşvətin yaranma tarixi insanın yaranışı ilə eyni vaxta təsadüf edir. Rüşvətxorluq yalnız vəzifəli insanların törətdiyi cinayətdir.

Təəssüflə qeyd edim ki, Azərbaycan dövlətinin Prezidenti rüşvətxorluğa qarşı ciddi mübarizə aparsa da, məmurların əksəriyyəti dövlət və millət üçün böyük təhlükə mənbəyi olan rüşvətə «nəfəs» verirlər, xalqı və dövləti talayıb, milyardlar qazanırlar. Hazırda rüşvət sözün tam mənasında xalqımızın və dövlətimizin ən böyük düşmənine çevrilib.

Dünyanın istənilən ölkəsində rüşvət və korrupsiya halları var, amma bu, ölkəmizdəki qədər geniş şəbəkə forması almayıb, dövlətin bütün qollarında xərçəng xəstəliyi kimi yayılmayıb.

Tarixə nəzər yetirsək, rüşvət və korrupsiyanın ölkəmizdə kütləviləşməsi SSRİ dövrünə təsadüf edir.

Müstəqil Azərbaycanın 30 illiyini bu ilin oktyabr ayında qeyd edəcəyik. Müstəqilliyin ilk dövründə dövləti idarə edən məmurların çoxu sovet dönəmində rüşvət və korrupsiya məktəbini «əla qiymətlərlə bitirmiş «məmurlar olması işi çətinləşdirib. Onların rüşvət hərisliyi müstəqil, gənc ölkəmizin çöküşü ilə nəticələndi.

Sovet dönəmində yaşamış insanlar bilir ki, respublikalarda, o cümlədən Azərbaycanda rüşvətxorluğun geniş yayılması bilavasitə Kremlin gizli siyasətinin tərkib hissəsi olub. Çünki Kremldə əyləşənlər bu yolla həm respublika rəhbərlərini özlərindən asılı vəziyyətə salırdılar, həm də respublikalardan külli miqdarda qazanc, rüşvət götürürdülər.

Məhz müstəqillik qazanmış gənc Azərbaycan dövlətində vəzifə tutan məmurların əksəriyyətinin rüşvət və korrupsiya xəstəliyinə kütləvi tutulmasının əsas səbəblərindən biri də məmurların sovet dövründə "peşəkar rüşvətxor" təcrübəsi qazanmasıdır.

Müstəqilliyin ilk dövründə respublikanın birinci katibi kreslosunu prezident kreslosuna çevirən Ayaz Mütəllibov ölkəmizi Moskvanın canişini kimi idarə edirdi. Ölkədə kadrlar vəzifəyə yalnız qohumluq, dostluq, yerliçilik və rüşvətlə təyin olunurdu.

Moskva Azərbaycanın müstəqil dövlət kimi inkişaf etməsinə maneə olmaq və özündən asılı vəziyyətdə saxlamaq məqsədilə, bir tərəfdən Ermənistan vasitəsilə torpaqları işğal etdi, digər tərəfdən, Azərbaycan vətəndaşları içərisində iğtişaş və qarşıdurma yaratdı.

Nəticədə Azərbaycan xaos, qarşıdurma və vətəndaş müharibəsilə üzləşdi. Ölkədə vətəndaş qarşıdurması elə həddə çatdı ki, xalq Heydər Əliyevi israrla hakimiyyətə dəvət etdi.

Təbii olaraq xalq dərk etdi ki, Rusiyanın ölkədə yaratdığı vətəndaş müharibəsinin qarşısını yalnız Heydər Əliyev kimi mükəmməl lider ala bilər. O, gəldi və nehrə kimi çalxalanan ölkəmizi daxili və xarici düşmənlərin əlindən aldı...

Qısa müddətdə ölkədəki çətin problemləri malik olduğu dövlətçilik təcrübəsilə yoluna qoydu. Ölkəmizin müstəqil dövlət kimi dünyaya inteqrasiya etməsi, böyük neft layihəsinin icrası üçün həlli mümkün görünməyən problemləri həll etdi. Moskva ilə bərabərhüquqlu dövlət kimi münasibət qurdu.

Lakin nə qədər ciddi mübarizə aparsa da, ölkədə sovetlərdən miras qalan rüşvətin və korrupsiyanın kökünü tam kəsə bilmədi.

Heydər Əliyevi 2003-cü ildə əvəz edən hazırkı ölkə Prezidenti İlham Əliyev "X" gününə möhkəm hazırlıq görən daxili və xarici düşmənlərin müqavimətini qətiyyətlə qırdı. Qısa müddətdə Azərbaycanın sürətli inkişafını təmin etmək üçün cəsarətli addımlar atdı. Bütün sahələrdə, Bakıda və regionlarda həyat qaynadı, ən geridə qalmış kəndlər belə abadlaşdırıldı...

Ölkədə gedən quruculuq işlərilə bərabər, mənfi hallara qarşı, xüsusən rüşvətxorluğa və korrupsiyaya qarşı mübarizə gücləndi. Bu mübarizəni təmin etmək üçün xüsusi idarə yaradıldı. Dəfələrlə edilən xəbərdarlıqdan nəticə çıxarmayan kadrlar vəzifədən azad olundu, tərbiyə olunmayan rüşvətxor və korrupsioner məmurlar həbs olundu. Xalqa yuxarıdan aşağı baxanlar, təhqir edənlər isə ciddi tənbeh olundu.

Torpaqlarımızı Moskvanın hərbi və əsgəri yardımı ilə işğal edən Ermənistanı diz çökdürmək və işğalda olan torpaqlarımızı düşməndən azad etmək məqsədilə Azərbaycan güclü, qüdrətli dövlətə çevirildi.

Nəhayət, İlham Əliyev Ali Baş Komandan olaraq, hakimiyyətə gələrkən xalqa verdiyi vədləri uğurla yerinə yetirdi. Ermənistan, himayədarları və terrorçulardan ibarət olan ordusu ötən il 44 gün ərzində Azərbaycanın Qəhrəman ordusu tərəfindən məhv edildi. Ermənistan sözsüz təslim olmaq barədə kapitulyasiya sənədinə imza atmağa və torpaqlarımızdan çəkilməyə məcbur oldu.

Azərbaycan xalqının 30 il ərzində dərddən əyilən qəddi dirçəldi, düşmən tərəfindən tapdanmış namusumuz təmizlədi...

Bir sözlə, ölkəmizin uğurlarından günlərlə danışmaq, dastan yazmaqla bitməz...

Lakin ölkəmizin imza atdığı uğurlarından danışmaqla yanaşı, hazırda mövcud olan nöqsan və qüsurlarımızdan da bəhs etməyin vacib olduğunu düşünürəm.

Ölkəmizdə nöqsan və qüsurlardan söz açanda, ilk növbədə, rüşvətxorluğun hələ də davam etməsini, məmur özbaşınalığının yüksək həddə çatmasını, gündəlik tələbat və ərzaq məhsullarının qiymətinin durmadan artmasını, əlillərin təqaüdlərinin kütləvi dayandırılmasını, məhkəmə, prokurorluq və daxili işlər orqanlarının qanunazidd fəaliyyətinin sadə xalqın vəziyyətini daha da ağırlaşdırdığını xüsusi qeyd edirəm...

Vətən müharibəsində ordumuzun düşmən üzərində çaldığı böyük qələbəni təmin edən sadə xalq övladlarının - şəhid ailələrinin, müharibə əlillərinin və veteranların müraciətlərinə məmurların kobud münasibəti xalqda ciddi narazılıq yaradıb.

Vətəndaşarın ərizə və şikayətlərinə vaxtında baxılmır, məmurların xalqa yuxarıdan aşağı baxması, hətta insanları təhqir etməsi halları çoxalıb...

TƏBİB-in təyin etdiyi xəstəxana direktorlarının ölkənin tibb ocaqlarında yaratdığı rüşvətxorluq hallarından şikayət edən vətəndaşların sayı durmadan artır. Ölkədə Tibbi sığortaya keçirməsinin insanların pulsuz müalicəsinin təmin olunmasına müsbət təsiri hiss olunmur. Tibb müəssisələrində hər yerdə rüşvətlə, haqsızlıqla qarşılaşan xalqda ümudsizlik yaranır.

Ölkə Prezidentinin gündəlik iş qrafikinin həddindən çox gərgin olmasından sui-istifadə edən bir sıra məmurlar sanki xalqı incitməklə, haqqını əlindən almaqla, qanunları pozmaqla, onu etiraz aksiyası keçirməyə təhrik etməyə çalışır...

Çirkin hərəkətlərilə vətən müharibəsində möhkəmlənmiş milli birliyi pozan rüşvətxor məmurlar narkotik aludəçiləri kimi, sanki rüşvət və korrupsiya xəstəliyinə tutulublar. Hiss olunur ki, əksər məmurlar rüşvət əməlinə görə hazırda məhbəsdə yatan məmur həmkarlarının aqibətindən düz nəticə çıxarmayıblar...

Ölkə Prezidentinin etimad göstərib yüksək vəzifəyə təyin etdiyi şəxslər əksər hallarda rüşvətxor və dələduz məmurların cinayətlərini ifşa etmək əvəzinə, onların xalqa və dövlətə qarşı etdiyi cinayətləri cənab prezidentdən gizlətdikləri aydın hiss olunur. Bu insanların ölkədə mövcud olan mənfiliklərə münasibətindən hiss olunur ki, yüksək vəzifəlilərin bir çoxu şəxsi mənafelərini dövlət və xalq mənafeyindən üstün tuturlar.

Lakin xalq Prezidentinə inanır, müdafiə edir, ölkədə mövcud olan mənfi hallara səbrlə dözür. Xalq inanır ki, dövlət başçısı bundan sonra da rüşvətxor, korrupsioner məmurlara və ölkədə mövcud olan bütün mənfi hallara qarşı mübarizəni inamla davam etdirəcək...

Tapdıq ABBAS
Baş redaktor,
"Əməkdar mədəniyyət işçisi",
Pedaqoji fəlsəfə doktoru,
Qarabağ müharibə veteranı
t.abbas1952@list.ru



"Yan"ların sayıqlamalarına nə vaxt cavab verəcəyik?

Samvel Babayan: "...əks halda müharibənin üçüncü mərhələsi olacaq"

Ali Baş Komandan bütün çıxışlarında bəyan edir ki, Qarabağ problemi artıq tarixə qovuşub, müharibə Azərbaycanın parlaq qələbəsi ilə bitib. Lakin cəmiyyətdə bu fikrə tərəddüdlə yanaşanlar da az deyil, çünki onların da əsası var. Biz hələ dövlət olaraq ərazilərimizin bir hissəsinə (Yuxarı Qarabağa və Laçın dəhlizi adlandırılan Laçın şəhərinə) nəzarət edə bilmirik. Ermənilərin yaşadığı həmin ərazyə Rusiya sülhməramlıları nəzarət edir. Bununla bağlı jurnalist Rövşən Kəbirli sosial şəbəkədə maraqlı bir status paylaşıb. Statusda bildirilir... *«Hesab edək ki, ölkə rəhbəri haqlıdır, müharibə başa çatıb: "Əgər həqiqətən də belədirsə, onda Azərbaycan hakimiyyəti beynəlxalq hüquqla ölkənin yuridiksiyasında olan bir ərazidə yaşayan balasanyan, anasanyan, atasanyan, qardaşyan və ilaxır "yan"arın müharibə və revanş çağırışlarına adekvat reaksiya verməli, bu cür açıq çağırış edənlər barəsində cinayət işi açmaqla konkret və əməli addımlar atmalıdır. Daha Arayik Arutyanla bağlı olduğu kimi, hansısa mücərrəd beynəlxalq axtarışa vermək kimi, gülüş doğuran nağıllar danışmaq lazım deyil. Onu da qeyd edim ki, müharibə çağırışı edən adam Ermənistanda yox, Azərbaycan ərazisində yaşayır. Deməli, əgər Rusiya həqiqətən də Qarabağda sülhyaratma missiyasın yerinə yetirirsə, müharibə çağırışı edən Vitali Balasanyan kimilərini Azərbaycan hökumətinin tələbi əsasında dərhal həbs edib, bizə təhvil verməlidir - bu onların bilavasitə borcudur.*

Düşünürəm ki, qaldırdığım bu məsələ çox aktualdır və yubanmadan bunun icrasına başlanmalıdır. Belə sərt addım atmaqla biz Qarabağda məskunlaşan siravi ermənilər də "bəlkə də qaytardıq" illizuyasından qoparmış olarıq. Anasanyan getsin Ermənistanda yaşasın və nə qədər istəyir çərənləsin, amma Qarabağda yox.

Öküzü soyub bıçağı quyruğunda sındırdıq, heç olmasa "dirilməyinin", "təpik atmağının" qarşısını vaxtında alaq".

Doğrudan da dünən s"Artsax Təhlükəsizlik Şurası"-nın keçmiş katibi Samvel Babayan erməni saytlarında belə bir fikir söyləyib: ***"Azərbaycan göydən yerə enməli - işğal olunmuş əraziləri geri qaytarmalı və Artsaxın statusunu tanımalıdır, əks halda müharibənin üçüncü mərhələsi olacaq".***

Birincisi, Samvel Babayanın belə bir fikir səsləndirməyə mənəvi haqqı yoxdur, çünki Müzaffər Azərbaycan Ordusu s"Artsax"ın, Ermənistanın Rusiya arsenalına əsaslanaraq otuz ildə qurduğu ordunu 44 günə darmadağın etdi. İkincisi isə o, Azərbaycana qarşı təhdidləri məhz Azərbaycan torpaqlarında dilə gətirir. Odur ki, həmkarımızın dediyi kimi, Azərbaycan hökuməti belə adamları öz konstitusiya və digər hüquqi-normativ aktları əsasında cəzalandırmaq üçün hüquqi addımlar atmalıdır.

Röyal

Qadir Ibrahimli

Sosial qapılar kasıb zümrənin üzünə qapadılır

Təhsil naziri deyir ki, bəs küçə doludur bahalı maşınlarla, camaat maşın almağa pul verir, övladının təhsilinə pul vermir. Necə deyərlər, elçisi gülüm olanın başına külüm olar

Bir az əvvəl də deyirdi ki, dövlət universitetlərində ödənişin həcmi azalsa, hamı ali təhsil alar.

Ölkədə təhsil haqqı orta hesabla 2500 manatdır. Müqayisə üçün deyim ki, qızımın təhsil aldığı Türkiyənin nüfuzlu Uludağ Universtetində təhsil haqqı 2000 lirədir, yəni 390 manat (ixtisaslara uyğun olaraq məbləğlər dəyişir). Eyni ixtisasa (psixologiya) görə, BDU illk təhsil haqqı 1800 manatdır. Nəzərə alın ki, qızım Türkiyədə əcnəbi vətəndaş sayılır. Yəni yerli tələbələrə daha çox güzəşt edilir. Ən başlıcası isə, Uludağla BDU-nun reytinqi müqayisə etmək belə ayıbdır. Nəhayət, illik ödənilən 390 manatın da bir hissəsi dolayısıyla tələbəyə qaytarılır – universitetin yeməkxanasında yemək cəmi 70 qəpikdir. Üstəlik, tələbələərə ictimai nəqliyyatda 50 faiz güzəşt edilir

O ki, qaldı küçənin bahalı maşınla dolu olması kimi mənasız arqumentə, o maşınların 90 faizi büdcə oğrularına məxsusdur və onlar övladlarını BDU-da yox, Avropanın ən bahalı universitetllərində oxudurlar. Hansı ki, onların 1 illik xərcinə 100 təzə maşın almaq olar. Orta statistik azərbaycanlılar yerli universitetlərə üz tuturlar və əksriyyəti uşaqlarının təhsilini dəstəkləmək üçün nəinki maşınını, hətta nişan üzüklərini də satırlar. Bəzən bu da kömək etmir. Son 5 ildə 10 minə yaxın tələbə pulsuzluqdan universitetdən qovulub. Bu statistika Avropa Universitetinin məzunu olan Emin Əmrullayevə yaxşı məlumdur. Ancaq nazir bu ildən təhsil haqqlarını aşağı salmaq haqda yox, əksinə, qaldırmaq haqda düşünür. Yəqin qaldıracaqlar – bir az əvvəl pensiya yaşı da artırıldı (65 yaş), ünvanlı sosial yardımın əhatə dairəsin daraltdılar əlilləri kütləvi şəkildə "saxta" çıxardırlar. İndi də təhsil haqlarına əl gəzdirəcəklər.

Tibb Universitetində illik təhsil haqqı 5500 manatdır, nəinki kasıb, hətta orta statistik azərbaycanlının da büdcəsinə uyğun deyil. Özlərinin qarınları ağrayanda belə Türkiyə, İsrail və Avropa klinikalarına üz tuturlar. Elə sərt karantin dövründə ölkəyə həkim "idxal" edirdilər. Bəs hanı bahalı unuversitetin məzunları? Azərbaycanda ali təhsilin qısa düsturu belədir – bahalı və keyfiyyətsiz təhsil

Təhsil haqqları isə rektorların korrupsiya maraqlarına xidmət edir. BDU-nun sabiq rektoru Abel Məhərrəmov işdən çıxarılanda obyektlərinin siyahısı yadınızdadır? Təhsil haqlarının oğurlanması hesabına hətta uzaq İspaniya da belə, oğluna böyük biznes qurmuşdu

Sosial ödənişlər azaldılır, pensiya yaşı artırılır, təhsil bahalaşır. Bir sözlə, sosial qapılar kasıb zümrənin üzünə qapadılır. Ancaq müharibə yenidən başlasa, o kasıb uşaqlarını dərhal tapıb ön cəbhəyə göndərəcəklər, erməni gülləsinə tuş edəcəklər, sonra da "şəhidim var" deyib vətənşüvənlik edəcəklər. Və təbii ki, öz uşaqlarını tumanları altında gizlədəcəklər

"Kənddən şəhərə" devzi altında möhtəkirlik

Müstəqil laboratoriyaların olmadığı şəraitdə qida təhlükəsizliyinə nail olmaq mümkün deyil

Kənd Təsərrüfatı Nazirliyi ötən həftə "Kənddən şəhərə" devzi altında kənd təsərrüfatı məhsullarının yarmarkasını keçirdi. Belə tədbirlər əvvəlki illərdə də keçirilirdi və builki aqrar məhsullar yarmarkası, yalnız devzi ilə digərlərindən fərqlənirdi desək, yanılmarıq. Mediaya verilən məlumata görə, yarmarkalarda altmış çeşiddə məhsulla, yüzə yaxın fermer iştirak edib. Yarmarkalar Bakının müxtəlif rayonlarını və Abşeron inzibati rayonunu əhatə edib. İnformasiyada bildirilir ki, Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi yarmarkalarda alıcılarda şübhə doğuran məhsulları ödənişsiz olaraq laborator müayinədən keçirmək üçün səyyar laboratoriyalar da təşkil edib. Bu ilk addım olaraq önəmli və təqdirəlayiq haldır, lakin bu barədə aşağıda ayrıca söhbət açacağıq.

Qeyd etdiyimiz kimi, bu il təşkil edilən yarmarkalarda yeni gördüyümüz, yalnız iri həriflərlə yazılan şüarlar və AQTA-nın təşkil etdiyi laboratoriyalar oldu. Yenə əvvəlki qayda ilə Bakının bazarlarından cəlb edilən kənd təsərrüfatı məhsullarının alveri ilə məşğul olan alverçilər bazarda satdıqları məhsulun içindən seçdikləri bir qədər zəif məhsulları nisbətən ucuz qiymətə yarmarkalarda satışa çıxarmışdılar. 8-ci kilometir bazarından cəlb edilən və adının açıqlanmasını istəməyən bir kənd təsərrüfatı məhsulları alverçisi bizimlə söhbəti zamanı bildirdi ki, əslində burada alver etmək ona sərf eləmir, amma sezonda belə yerlərdə alver etmək, ona bazarda yerini möhkəmlənməsi üçün lazımdı: *"Müdriyyətin xahişini yerinə yetirəndə istər-istəməz o da, özünü mənə borclu sayır, iri-xırda söhbət olanda məni bazardan qovmur, qovsa kim nə deyəndi ki, ona. Belə də ki, bura gətirdiyim mal, onsuz da bazarda burdakı qiymətə satılmır, bu da mənim uduşumdu".*

Nizami rayonunda təşkil edilən yarmarkada gördüyüm alverçilərin böyük əksəriyyətinin sifəti tanış gəlirdi, çünki onlar 8-ci kilometr bazarının daimi alverçiləri idilər.

Bu da o deməkdir ki, hökumət fermerlərin bazarlara çıxışının məhdud olmasından xəbərdardır, lakin onların bazara çıxışına mane olan problemləri aradan qaldırmaqdansa, həmin problemlərin aradan qaldırıldığı görüntüsünü yaratmaqla məşğuldur. Belə ki, kənd təsərrüfatı yarmarkaları təşkil edərək bazarlardan keyfiyyətsiz məhsulları bu yarmarkalara cəlb etməklə, guya fermerlərin birbaşa özlərinin bazara çıxışının yaradılması görüntüsünü yaradır. Halbuki kənd təsərrüfatı məhsullarının fermerlər tərəfindən bazara çıxması problemi qalmaqda davam edir. Bu sahə də monopoliya altındadır, fermer məhsulunu bazara çıxarmaq arzusuna düşdükdə isə mütləq ziyana düşür. Çünki bazarlarda yerləri pulla satın alan alverçilər fermerlərin bazara sərbəst girişinə mane olurlar. Biz iddia etmirik ki, bazarlarda alverçilər olmamalıdır, əlbəttə, olmalıdır, amma məhsulunu özü satmaq istəyən fermerə də şərait yaradılmalıdlır ki, əldə etdiyi məhsulu bostan qırağında su qiymətinə alverçilərə satmaq məcburiyyətində qalmasın. Bunu isə hələki reallaşdıra bilmirik. Çünki dövlət nədənsə, alverçilərdən zəif durumda görünür. Bu səbəbdən də kənd təsərrüfatı məhsulları mövsümündə kəndlərdə məhsul alverçilərə su qiymətinə, şəhərlərdə isə alverçilər vətəndaşlara od qiymətinə təqdim edirlər. Vətəndaş fermer təmasına isə imkan verilmir. Arada qazanan da bazar alverçiləri adlanan möhtəkirlər olur.

O ki qaldı AQTA-nın laboratoriyalarına, bazardan aldığımız iri həcmli bir qarpızın tərkibindəki azotun xüsusi çəkisini müəyyənləşdirməyə çalışdıq. Laboratoriya işçiləri əlindəki mobil telefona oxşar bir aparatın markerini neçə dəfə qarpızın qabığına sancsa da, bir nəticə hasil olunmadı. Mütəxəssis bildirdi ki, cehazın "kaliberlənməsinə" ehtiyac var, bir azdan yaxınlaşın. Bu da sənə müasir texnika?!

Əslində, böyük şəhər bazarlarında bir tərəfdən hökumət ödənişsiz olaraq bazara daxil olan məhsulları müayinə etməli, yalnız standartlara uyğun gələn məhsulları bazara buraxmalıdır. Digər tərəfdən isə Kənd Təsərrüfatı Nazirliyinin yerli nümayəndəliklərinin mütəxəssisləri fermerləri zərərsiz, ekoloji cəhətdən təmiz məhsul yetişdirmək istiqamətində maarifləndirməlidir. Bunlarla yanaşı ölkədə bütün növ məhsul və xidmətlərin keyfiyyətini ölçə bilən müstəqil laboratoriyalar fəaliyyət göstərməlidir. Vətəndaş, məhz bu laboratoriyalarda şübhələndiyi məhsulu və xidmətləri ödənişli əsaslarla müayinə etmək, yararlı və ya yararsız olduğunu müəyyən etmək imkanına malik olmalıdır. Yalnız bu halda bütün ölkə üzrə qida təhlükəsizliyini nəzarətdə saxlamaq mümkün ola bilər.

Akif Nəsirli

Deputat, yoxsa Millət Vəkili

Məhəmməd (s.ə.s.) buyurub: bir yerdə ki, zəif qorxub çəkinərək dili dolaşa-dolaşa bir söz deməyə çalışa, amma qüvvətlidən öz haqqını ala bilməyə, o xalq nə təmizə çıxar, nə də xoşbəxt olar". Bizim deputatlarımız kimi...

Sözün açığı, mən hər zaman deputatxanamızı Milli Məclis, deputatları millət vəkili adlandırmaqdan çəkinmişəm. Bunun da bir çox səbəbləri var. Birincisi, hər zaman hökumətin və məmurların dilindən danışan deputatı necə millət vəkili adlandırmaq olar? İkincisi, heç kimə sirr deyil ki, bu gün deputatxanada təmsil olunan şəxslərin hamısı təyinatlı deputatlardır və bu səbəbdən də Milli Məclisi formalaşdıra bilməzlər.

Buna görə də hesab edirəm ki, həqiqi Milli Məclis heç zaman xalqın real vəziyyətini nəzərə almadan qanun qəbul etməz, millət vəkili olan kəs də, belə qanuna səs verməz. Lakin bu gün real həyatda bütün bu dediklərimizin əksini görürük və məhz bu səbəbdən də, xalq parlamenti deputatxana, orada səs vermək hüququna malik olan təyinatlı şəxsləri deputat aldlandırır (əslində, deputat sözünün latın dilində hərfi mənası da, xalq tərəfindən seçilərək göndərilən mənasını özündə ehtiva edir). İnsafən, son vaxtlara qədər onların özləri də reallıqla razılaşaraq deputat və deputatxana ifadələrinə etiraz etmirdilər. Artıq görürlər ki, bu ifadələr daha çox leksikonumuzda yer alır, bütün digər məsələlər kimi bunu da qanun şəklinə salıb, xalqa sırımaq istəyirlər ki, hər kəs deputatxanamızı Milli Məclis, deputatları millət vəkili adlandırsın. Mümkündürmü, əcəba! Məncə yox, çünki xalqın gözü tərəzidir. Siz nə qədər çalışsanız da, xalqa xidmət etmədikcə, heç kim sizi millət vəkili kimi qəbul etməyəcək. İndiyə qədər xalqın rifahını, yaşamını nəzərə alan bir qanun belə qəbul etmədiyiniz halda, xalq bu qurumu necə Milli Məclis adlandırsın? Bu qurumun Milli Məclis adlandırılması üçün lazımdır ki, xalq öz nümizədlərini həmin Məclisə seçsin, onları millət vəkilləri adlandırsın. Xalqın seçdiyi millət vəkilləri də öz növbələrində Milli Məclisi formalaşdırıb dövlətin və xalqın mövqeyini özündə əks etdirən qanunlar qəbul etsin. Bu gün isə biz bunu görmürük.

Hazırda sözün bütün mənalarında Azərbaycanda Məmur Diktaturası höküm sürür. Deputatxanamız da, deputatlarımız da tam olaraq bu diktaturanın xidmətindədir. Bu necə Milli Məclisdir ki, ora təqdim olunan layihələrin böyük əksəriyyətinin xalqın yox, məmurların mövqeyinin, yaşamının və rifahının yüksəlişinə xidmət etdiyini görə-görə, bilə-bilə onun qəbuluna rəvac verir? Orada oturanlar necə özlərini millət vəkili adlandıra bilərlər ki, qəbul etdikləri qanunların əksəriyyəti xalqın yox, məmurların və onların yaxınlarının rifahına xidmət edir? Millət vəkillərini xalq seçməlidir, bunu qanunlarımız da, Konstitusiyamız da tələb edir. Lakin bu məmləkətdə böyükdən kiçiyə hamı bilir ki, deputatların 90 faizi müxtəlif ranqlı məmurların dəstəyi və tövsiyyəsi ilə deputat təyin olunublar və sonra da narahatlıq keçirirlər ki, bizə millət vəkili yox, deputat deyirlər.

Bu gün parlamentdə təmsil olunan deputatları birmənalı millət vəkili adlandırmaq mümkün deyil.

Buna görə də, yeni parlament seçkiləri keçirilməli, xalqa imkan verilməlidir ki, özünün Konstitusiya hüquqlarından istifadə edərək istədiyi şəxsi millət vəkili seçsinlər. Onlar da öz aralarından bir sədr seçib, Milli Məclisi formalaşdırsın.

Yoxsa ki, gəlin, qanun qəbul edək, xalq deputatxanaya Milli Məclis, deputatlara millət vəkili desin, bu mümkün deyil. Çünki sonra da bir qanun qəbul edəcəklər ki, kim millət vəkilinə deputat desə, cərimələnsin. Bu oyunun əsas məqsədi də, elə budur, cərimə! Dövlət məmurları büdcəni talayıb özlərinə xoş güzaran qururlar, qanunlar da kasıb xalqı cərimələməklə məmurların taladıqları pulları büdcəyə qaytarmağa xidmət edir. Yazıqlar olsun o dövlətə ki, büdcəni cərimə və rüsumları artırmaqla doldurmağa çalışır.

Məni bağışlayın, millət vəkilləri və Milli Məclis belə qanunların qəbuluna heç zaman yol verməz, verirsə, demək ki, deputatdırlar və deputatxanadır! Məndən bu qədər!

Yusif Seyid

Rusiyadan Ermənistana 3,2 milyon dollarlıq dəstək

Bu gün Rusiyanın Ermənistandakı Səfirliyi ilə BMT-nin İnkişaf Proqramının Ermənistandakı nümayəndəliyi arasında Azərbaycanla sərhəd olan Sünik, Heqarkunik və Vayoçdzor bölgələrində həssas icmalara və vətəndaşlara yardım göstərilməsini nəzərdə tutan layihə ilə bağlı anlaşma memorandumu imzalanıb.

Paralel.az erməni mediasına istinadən xəbər verir ki, dəyəri 3,2 milyon dollar olan layihə Rusiya hökuməti tərəfindən maliyyələşdiriləcək, onu BMT-nin İnkişaf Proqramı icra edəcəkdir.

"Layihənin əsas məqsədlərindən biri postkonflikt dövründə erməni icmasının çətinliklərini aradan qaldırmağa, onda özünüinamı möhkəmləndirməyə və inkişafına nail olmağa yönəlib. Biz başlıca strateji müttəfiq kimi buna böyük önəm veririk. Bu təşəbbüs Rusiyanın Ermənistanın sosial-iqtisadi inkişafı ilə bağlı kompleks tədbirləri çərçivəsində növbəti addımdır", - deyə Rusiyanın Ermənistandakı səfiri Sergey Kopırkin məsələyə şərh verib.

Vətənin zəfər salnaməsində adı olan igid

44 günlük ikinci Qarabağ müharibəsində göstərdiyi qəhrəmanlıqla Vətənin zəfər salnaməsinə adını əbədi həkk edən İlqar Elçin oğlu İbrahimov Astara rayonu, Taxtanəkəran kəndindəndir. Vətənə məhəbbəti lap uşaq yaşlardan təmiz, ulu duyğulara əsaslandığı üçün daşını, torpağını canından əziz bilib, onun yolunda şəhidlik zirvəsinə ucaldı. İlqar 30 il düşmən tapdağına əsir düşən müqəddəs Azərbaycan torpaqlarının azadlığı naminə yaşına uyuşmayan bir hünərlə son damla qanınadək döyüşdü. Məhz buna görə də 18 illik ömür yolu xalqına şan-şöhrət oldu. İndi Astara elində kimi dindirsən İlqarla fəxr etdiyini, qürur duyduğunu deyəcək. Onun Vətənə vurğunluğu, yurduna bağlılığı, insanlığa sevgisi burada hamıya nümunədir.

2020-ci ildə İlqarın hərbi xidmətə başlamaq yaşı gəlir. El-oba yığışır artıq gözəl əməlləri hesabına cəmiyyətdə özünə qarşı səmimi, xeyirxahlıq hissləri oyadan Vətən sevdalı oğlunu xüsusi ehtiramla ordu sıralarına yola salırlar. İlqar Goranboyda doğma Azərbaycana olan tükənməz sevgisini ona ləyaqətli xidməti hesabına göstərir. Kəşfiyyatçı kimi olduğu təlimlər zamanı əla döyüşçü keyfiyyətləri nümayiş edir, hərbin sirlərini dərindən mənimsəyir. Torpaq uğrunda can qoymağı özünə ali məqsəd seçir, hər an erməni cəlladlardan qisas almağa məqam gözləyir. Vətənin qeyrət sahibi kimi əsgərlərin, zabitlərin gözündə ucalır.

İlqar Vətən müharibəsi başlanan gündən torpaq uğrunda ölüm-dirim döyüşlərə girir. Necə deyərlər, azğın düşmənlə qeyrət savaşında əsl hünər göstərir. Bir-birindən çətin döyüş əməliyyatlarında erməni faşistlərinə ağır itkilər verir-verə qələbəyə doğru gedir . Tükənməz Vətən sevgisi, qələbəyə inam hissi isə İlqarı çox ölümdən qoruyur.

İlqar sonuncu döyüşünə Suqovuşanda atılır. Burada ağır müharibə meydanında düşmənə qan udduran igidimiz tarixi bir zəfər yazır. Vətənin bu müqəddəs parçası yağı tapdağından azad olana qədər döyüşür. Son anda qəfil atılan namərd gülləsinə tuş gəlir. Bərdə xəstəxanasında ömrünün 18-ci baharında əbədiyyətə qovuşur. Və Vətəninə verdiyi bu şərəfli ömür qərinələr boyunca İlqara milyonların ürəyində yaşamaq xoşbəxtliyi gətirir.

Dövlət öz sədaqətli oğlunu daim ucalıqda, yüksəklikdə saxlamaq məqsədilə onu ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" medallara layiq gördü.

Zəfər Orucoğlu,
Azərbaycan Jurnalistlər Birliyinin üzvü

Şahnaz Salehqızı

Tibbi sığortanın tətbiqi səhiyyədə olan anarxiyanı daha da dərinləşdirir

Sağlam gəlib xəstə çıxdığın xəstəxanalar

Ölkədə tibbi sığortanın tətbiqi tibb müəssisələrində ikihakimiyyətlilik yaradıb. TƏBİB-in xəstəxanalara direktor təyin etdiyi şəxslər "kadr islahatlarını" əsasən, rüşvətlə aparması xalqın kəskin etirazına səbəb olur.

TƏBİB-in rəhbəri Ramil Bayramlı elə bir fəaliyyət kursu götürüb ki, dövlətin xalqa pulsuz tibbi xidmətindən danışmağa dəyməz. Çünki belə bir xidmət yoxdur, yalandır...

Səhiyyə nazirliyinin varlığı isə hiss olunmur.

TƏBİB-in rəhbəri Ramil Bayramlı tibb müəssisələrinə təyin etdiyi direktorlar daha çox "bazarkomluq" edirlər.

Ölkədə Tibbi Sğortanın tətbiqinə keçilsə də, xəstələrin şikayətləri və apardığımız araşdırmalar təsdiq edir ki, Səhiyyə Nazirliyi hazırda "arabanın beşinci təkəri" rolunu oynayır.

Həkimlər yenə də xəstələrdən rüşvət alır, müalicə üçün lazım olan dərman və digər vasitələri xəstələr özləri alır. Xəstəxanalarda çalışan kiçik tibbi personal (tibb bacıları) da həkimlərin "pullu müalicə işini" davam etdirir, xəstədən 5-10 manat almasa, xidmət etmək əvəzinə əzab verir...

Bu yazıda tibb müəssisələrinin adını ona görə çəkmirik ki, nöqsanlar kütləvi xarakter daşıyır. Mənfi hallar ölkənin bütün səhiyyə sisteminə sirayət edib. Ölkədə elə bir normal fəaliyyət göstərən tibb ocağı yoxdur ki, orada xəstə normal, rahat şəkildə əvvəldən elan edilmiş konkret məbləğə müalicə olunsun...

Şəxsən mən bu "şeytan yuvalarının" hansına müraciət etmək məcburiyyətində qalıramsa, səhhətim ora getdiyim andan qat-qat artıq dərəcədə pisləşir. Səbəbi bahalıq, laqeydlik, ötür-ötür oyununa tamaşadan dolayı bezginlik, nifrət və sairə...

Ölkə prezidenti səhiyyə ocaqlarında normal şərait yaradılması üçün bütün tədbirləri görsə də, səhiyyə sisteminin maddi-texniki bazasını möhkəmləndirsə də, rüşvətə görə həbs olunan həkimlərin sayı çox olsa da, bu sahənin idimi düzəlmir ki, düzəlmir.

Hamını bir sualın cavabı maraqlandırır- görəsən tibb ocaqlarında xalqa normal, rüşvətsiz tibbi xidmət göstərilməsi ideyadan- sözdən konkret əmələ nə zaman keçəcək?

TƏBİB-in rəhbəri Ramin Bayramlının təyin etdiyi direktorların ölkə səhiyyəsində dərinləşdirdiyi "rüşvət sindromu" tezliklə ortadan qaldırılmasa, qəsdən, çirkin məqsədləri həyata keçirmək üçün yaradılmış anarxiya daha da dərinləşəcək və insanların şikayətlərini kütləvi etiraz aksiyaları əvəz edəcək.

Bu da, Azərbaycanı çökdürməyə çalışan çoxsaylı daxili və xarici düşmənlərə yaxşı fürsət verə bilər.

Əhaliyə "toy tutan" toy qərarı: Başlayaq qaydaları pozmağa!

Sabahdan toylar rəsmən başlayır. Ona görə "rəsmən" sözünü işlədirəm ki, musiqisiz, bəy-gəlinsiz, bəytərifisiz, "maskalanmış" toylar restoranların açılması ilə zatən başlamışdı.

Sabahdan isə daha gizlənməyə, qaçdı-tutduya ehtiyac olmayacaq – adam balası kimi toy etmək mümkündür. Yalnız bir çox dolaşıqlıqlar qalır.

Məsələn, 50 nəfərə qədər olan toy məclislərində "korona pasportu" istənilməyəcək, ancaq 150 nəfərlik toyda iştirak üçün mütləq "pasport" lazımdır.

Hansı məntiqlə belə bir qərar verilir? O deməkdir ki, 50 nəfər yoluxsa, xəstəxanalarımızın gücü var, müalicə edə bilərik, 150 nəfər üçün bir az çətin olacaq.

Çox normal yanaşmadır və əslində dövlət öz imkanlarını hesablayaraq bu addımı atır. Yəni çarpayı sayına uyğun, hansı sayda xəstənin öhdəsindən gələ biləcəyini düşünür və qərar verir.

Ancaq AZAL-ın dünən yaydığı açıqlamadan sonra bəlli oldu ki, heç də hər şey sonadək düşünülməyib, qəribə bir labirint və yaxud "yanıltmac" yaradılıb.

AZAL elan etdi ki, OQ-nin qərarına əsasən, Azərbaycana gələn hər bir kəsdən korona testi tələb olunur: yəni sənin pasportun var, yoxdur – fərq etməz, uçuşdan öncə 72 saat müddətində korona testinin neqativ cavabı olmalıdır ki, ölkəyə buraxılasan. Bu isə o deməkdir ki, sən peyvənd olunsan da, bir dəfə bu xəstəliyi keçirsən də, virusa yoluxma və digərlərini yoluxdurma ehtimalın var. Bəzi ölkələr "korona pasportu"nu əsas sayır, Azərbaycan isə daha ehtiyatlı davranır və test tələb edir.

Bu da normaldır, ehtiyat igidin yaraşığıdır. Bəs, 150 nəfərlik təyyarədə uçuş üçün "korona pasportu"nun olub-olmaması vecə alınmırsa və test tələb edilirsə, 150 nəfərlik toy məclisi üçün "pasport" niyə aktual olmalıdır? Əgər "pasport"lu şəxs də virusa yoluxa bilərsə, onda niyə toya gedəndə test istənilmir, ancaq təyyarə ilə ölkəyə gələndə test tələb edilir?

Əgər ehtiyatlıyıqsa və test vacibdirsə, onda bu "pasport" kimin nəyinə gərək oldu ki?

Ölkəyə gün ərzində gələnlərlə gün ərzində keçirilməsi gözlənilən toy mərasimlərini müqayisə edək: gündə neçə reys qəbul edirik? Nə qədər "150 nəfərlik" təyyarə gəlir ölkəyə? Bəs, ilyarımdır keçirilməyən toy məclislərinə icazə verildiyini nəzərə alsaq, gün ərzində Bakıda nə qədər "150 nəfərlik" toy olacaq?

Toylar və toy məclislərində iştirak edənlərin müqayisəyəgəlməz dərəcədə çox olduğunu heç düşünmədən hər kəs deyə bilər. Onda niyə təyyarə ilə gələnlərdən test tələb olunur, ancaq toya gedənlərdən yox?

50 nəfərlə toymu keçirmək olar? Elə bəy və gəlin tərəfinin doğmaları, onların uşaqları 50 nəfəri aşır. Azərbaycan kimi toy ənənəsi olan ölkədə 50 nəfərlə toy məclisi keçirmək mümkündürmü?

Ümumiyyətlə, daha alternativ, daha münasib təkliflər də vermək olardı. Məsələn, yalnız açıq havada, rəqslərə nəzarətlə, qapı ağzında temperaturu yoxlamaqla, gigiyenik vasitələrdən istifadəni vacib etməklə, əvəzində digər məhdudiyyətləri götürməklə və s.

Qanunları elə qəbul edirik, icazələri elə veririk ki, istər-istəməz onları pozmaq lazım gəlir: həm "korona pasportu" məsələsinə, həm məclis iştirakçılarının sayına görə. Bunları pozmadan, dəqiq əməl etməklə Bakıda (rayonlarda bəlkə də ola bilər) bircə toyun da keçirilməyəcəyinə indidən zəmanət verə bilərəm.

Nəsə, toylarımız mübarək, haydı, başlayaq qaydaları pozmağa...

Şeyx Teymur

"Delta" və "Delta plyus" bəşəriyyətə nə vəd edir?



Bir il yarımdan çoxdur ki, dünyanın kabusuna çevrilən (COVİD-19) virusunun daha təhlükəli mütasiyaları peyda olub. Hindistan ştammı kimi tanınan "Delta" və "Delta plyus" mutagenlərinin yayılma sürəti adi koronavirusdan 60 faiz daha çoxdur. "Delta" və "Delta plyus" ştammları gənclərdə ağır qrip əlamətləri kimi - mədə ağrısı, ürəkbulanma və iştahsızlıqla müşahidə edilə bilir.

Bu ştammın əsas xüsusiyyəti insan hüceyrələrinin daxilinə daha tez nüfuzetmə qabiliyyətinə malik olmasıdır, ona görə də onun yayılma sürəti daha yüksəkdir. "Delta" ştammının vaksin almış insanlarda hüceyrə daxilinə nüfuz etməsi prosesi ləngiyir, bir çox hallarda isə ümumiyyətlə, orqanizmdə formalaşmış anti-cismlər virusu dərhal məhv edir. Bu qarşıdurmada orqanizmin ümmun sisteminin vəziyyəti yenə əsas rol oynayır.

Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) məlumatına görə, yeni mutagen artıq dünyanın 92 ölkəsində, o cümlədən də qonşu gürcüstanda da aşkarlanıb. ÜST dünya ölkələrini koronovirusun yeni mütasiya olunmuş formalarına qarşı qabaqlayıcı tədbir görməyə, ölkələrin başladığı karantin rejimlərinin yumşaldılması prosesini ən azı bir ay ləngitməyə çağırır. Bununla yanaşı ÜST ölkələri vaksinasiyanı sürətləndirməyi tövsiyyə edir. Çünki mütəxəssislərin fikrincə, ÜST tərəfindən təsdiqlənmiş bütün vaksinlər koronavirusun bütün mütasiya olunmuş variantları üçün müxtəlif dərəcəli təsirlərə malikdir ki, bu da xəstəliyin nisbətən yüngül simpitomlarla keçməsinə səbəb olur.

Mahir

Kənd, yoxsa şəhər?

Labirintdən çıxış yolu...

Kənd və şəhər mövzusu zaman-zaman gündəmə gələrkən, onları bir-biriylə müqayisə edərkən, hansınınsa digərindən üstün olduğu polemikaya dönər. Bununla da kəndli və şəhərli bir dövlət içində az qala, iki millətə çevrilər. Və bu da könül xoşluğuyla deyil, bir-iki nəfərin ortalığa atdığı sözlə, məcburi şəkildə olar. Necə deyərlər, "bir dəli quyuya daş atdı, yüz ağıllı onu çıxara bilmədi"...

Biz illərlə multikulturalizmdən, ayrı-seçkilik olmamasından və s. mədəni varidatdan bəhs etmişik, yazmışıq. Elə başqa millətlərə olan humanist, bərabər hüquqdan da təkcə bəhs etməmişik, ona əyani şəkildə əməl etmişik. Tanıdığım adamların heç birindən də hansısa xalqa, millətə, milli azlığa, azsaylı xalqa qarşı ögey münasibətin, kobud, qaba danışığın şahidi olmamışam. Əksinə, öz dilində danışanlara hörmətlə yanaşaraq, hətta onların dilində biriki söz öyrənməyə də cəhd etmişik. Başqa xalqların özünəməxsus adət-ənənəsinə, mətbəxinə, musiqisinə, rəqsinə belə, maraq göstərmiş, onların bəzisini öz həyat-məişətimizdə tətbiq etmişik. Bir sözlə, hamıya gücümüz çatan qədər, ən əsası isə, ürəyimizin səsiylə, hörmətlə, məhəbbətlə yanaşmışıq.

Belə olan şəraitdə, heç vaxt ağlımıza gəlməyib ki, öz millətimizin nümayəndələrinə şəhərli və kəndli prizmasından yanaşaraq, onların birini digərindən üstün tutaq.

Heç vaxt düşünməmişik ki, onlardan birini göylərə qaldıraq, digərini yerdən-yerə çırpaq. Heç zaman demərik ki, kəndli pisdir, şəhərli yaxşı, yaxud, şəhərli pisdir, kəndli yaxşı. Əksinə, onların hər birinin öz yaşayış yerinə-məkanına, şəraitinə, maddi vəziyyətinə və s. uyğun həyatını qəbul etmişik. Adama "kənd yaxşıdır, yoxsa şəhər", "kəndli yaxşıdır, yoxsa şəhərli" sualının verilməsini bütün dövrlərin uşaqlarına ünvanlanan "atanı çox istəyirsən, yoxsa ananı" kimi məntiqsiz bir sualla eyni tutmuşuq. Bu, bizim, yəni kənd-şəhər fərqi bilmədən, insanlığın daşıyıcısı olanların yanaşması...

Lakin fərqi yoxdur, sivilizasiyalı, yoxsa ondan kənar yerdən çıxasan, şəhərdə, yoxsa kənddə doğulasan, lazım və vacib olan, mənəvi keyfiyyətlərin daşıyıcısı kimi, insanlığın adına layiq yaşamaqdır.

Adam var ki, yaşadığı yerdən kənara ayağını da qoymayıb, amma mütaliəsi sayəsində dünyanı səyahət edib...

Adam var ki, "ömrü təkər üstündə keçib", dünyanı gəzib, amma elementar dünyagörüş səviyyəsi yoxdur...

Adam var ki, müxtəlif sahə üzrə ali təhsili, titulları var, lakin ömründə bircə dəfə də teatra-konsertə, kiminsə yaradıcılıq gecəsinə getməyi lazım bilməyib...

Adam var ki, heç bir təhsil almayıb, ayağını kənddən şəhərə qoymayıb, lakin sinədəftərdir, hardan desən, ordan xəbər verir, mayası şifahi xalq yaradıcılığından yoğrulub...

Adam var ki, ömründə heç bir bədii-elmi və s. kitab üzü açmayıb, amma hansı filmdən, müasir musiqidən, müğənnidən desən, xəbəri var...

Bir sözlə, insanlar xarakter, hal-xasiyyət, yer-məkan, təhsil, mənəviyyat, mədəniyyət və s. baxımından müxtəlifdirlər. Onların hamısını birmənalı şəkildə hərtərəfli hesab etmək məntiqsizdir. Birində olmayan o birində var, birində çatışmayan digərində üzə çıxır, beləliklə, adına insan dediyimiz bir-birinə mənəvi varidatdan dolayı, hörmətlə yanaşır, həqiqi mənada, yaşayır, ömür sürür...

Yaşaya bilməyənlər, mənasızlıqdan boğulanlar isə ortaya məntiqsiz bir söhbət, yaxud, atmaca atır, milləti bir-birinə vurmağa başlayrlar. Onların sözünü mənalı hesab etsək, gərəkdir onda lap uzağa gedək, mədəniyyət və incəsənətimizdə, elm və təhsilimizdə və digər sahələrdə əbədilik yer tutanların mənşəyini, məkanını incələyək. Bu, kimə lazımdır?! Millət, xalq olaraq bizə lazım olan sadalanan sahələrdə inkişafa, irəliyə, təqqiyə nail olmaq, bizə örnək sələflərimizə daimi hörmətlə yanaşmaqdır. İstənilən halda, hansı dövrdə yaşamağımızdan asılı olmayaraq, hamının mütərəqqi cərəyanlara, inkişaf meyllərinə yanaşması, onunla ayaqlaşması fərqlidir. Bu məqam, istər kənd olsun, istərsə də şəhər, hər yerdə, məkanda keçərlidir.

...Nə kəndli, nə də şəhərli nə də kənd kimi yanaşmaq olmaz. Şəhər və kənd iddiasının olduğu, onların bir-biriylə müqayisəsinin qabardıldığı yerdə həqiqi mənada ömür sürmək sürgünə bərabərdir...

İnkişafa və mütərəqqi meyarlara hesablanmayan müqayisəni sevməsəm də, son günlər müzakirələrə səbəb olan məsələ barədə fikrimi bildirməkdə də haqlıyam. Bir rayonlu, əslində, kəndli olaraq, paytaxta ali təhsil almağa gələndə, şəhərlilərin heç də hamısının kinoya-teatra, muzeylərə, yaradıcılıq gecələrinə, tanıtım tədbirlərinə getmədiyini gördüm. Halbuki, öyrəşmişdik ki, kənd məktəbində dərsləri bitirən kimi, rayondakı musiqi məktəbinə tələsək, əksəriyyət kimi.

Rayonumuzda, kəndimizdə, nə də indi...

Və sonda, yenə də əvvələ qayıdıram, özü də hər mənada. Elmimizdə, mədəniyyət və incəsənətimizdə, bütün vacib sahələrdə hamı birmənalı şəkildə nə şəhərdəndir, nə də kənddən. Bayağı səslənsə də, daim onu deməyə məcbur qalsaq da, hər yerin yaxşısı da var, pisi də. Və heç kimin də kimsəni, özündən başqasını təhqir etməyə, aşağılamağa səlahiyyəti çatmır. Bu, məkanından, yerindən-yurdundan asılı olmayaraq, hamının əməl etməli olduğu bir mənəviyyat, mədəniyyət nümunəsidir.

Ona əməl edilsə, hamı əbədən müzakirə mövzusuna çevrilən nə kəndli, nə də şəhərli adlanar. Bu, baş versə, adımız bir xalq, eyni millət olar, sadəcə...

Nigar Orucova

Narkotik açıq satışda: nə etməliyik?

Ölkəmizdə sosial media istifadəçiləri tərəfindən aşkar şəkildə həyata keçirilən narkotik satışına qarşı hüquq-mühafizə orqanları ciddi monitorinq aparmalıdır. Bu iş Azərbaycanda yetəri səviyyədə deyil. Daxili İşlər Nazirliyi sistemində kiber-cinayətkarlıqla mübarizə ilə bağlı çatışmazlıqlar var.



Bunu **Paralel.az**-a "Multimedia" İnformasiya Sistemləri Texnologiyaları Mərkəzinin direktoru, Azərbaycan İnternet Forumunun prezidenti Osman Gündüz son dönəm ölkəmizdə sosial şəbəkə üzərindən aşkar şəkildə həyata keçirilən narkotik satışı barədə danışarkən deyib.

"Hüquq-mühafizə orqanlarının narkotik satışı və kiber cinayətkarlıqla bağlı monitorinq proqram təminatları və metodologiyaları olmalıdır. Aidiyyəti orqanlar buna laqeyd yanaşmamalıdır. Bu istiqamətdə ölkəmizdə konseptual şəkildə də problemlər var. Hüquq-mühafizə orqanları arasında kiber-mühitdə açıq şəkildə həyata keçirilən cinayətlərlə bağlı səlahiyyət bölgüsü də konkretləşdirilməlidir. Bu istiqamətdə kadr hazırlamaq, o cümlədən maarifləndirici tədbirləri sürətləndirmək vacibdir", - O.Gündüz bildirib.

«Ağsaqqalların» səs yazısı yayıldı

Keçmiş deputat, sabiq nəqliyyat naziri Ziya Məmmədovun qardaşı Elton Məmmədov AMEA-nın Rəyasət Heyətinin iclasında qurumda baş verən ağır cinayət hadisələrindən danışıb.

Yayılan səs yazısından görünür ki, E.Məmmədovun işdən çıxarılması ilə bağlı təşkil olunan iclasda son çıxışı zamanı o, müəyyən faktları açıqlayıb.

Bildirib ki, AMEA-da ciddi qanun pozuntuları baş verib. İşlədiyi müddətdə qanunsuzluqların qarşısını almağa çalışsa da, buna tam müvəffəq ola bilməyib.

Elton Məmmədov qeyd edib ki, alimlər üçün olan AMEA-nın torpaq təyinatları dəyişdirilib və ayrı-ayrı adamlara satılıb: ***"Bu hallarla hər gün mübarizə aparmışam, şəffaflığa çıxmaq üçün sənədləri qaydasına qoymuşam. Torpağından başlayaraq, reyestr yaratmışam. O vaxt komissiyanın sədri akademik Rasim Əliquliyev olanda tövsiyələr vermişdi. İndi baxa bilərsiz, 48 təşkilatın reyestrini aparmışam. Reyestrdə külli miqdarda avadanlıqlara dövlət vəsait verib. Artıq bir təşkilatın ümumi monitorinqini aparıb reyestrlər müəyyənləşdirmişik. Bunların hamısını qısa bir zamanda görmüşəm. Təşkilatçılar elə işlədi ki, guya Ramiz Mehdiyevin rəhbərliyi ilə Elton Məmmədov Xızıda villalar tikdirib, satacaq. Dövlət qanununu pozaraq, Milli Elmlər Akademiyası Rəyasət Heyətinin qərarı ilə 322 nəfərə torpaq verib. Dövlət təyinatı qalıb bir tərəfdə, fərdi bağçılıq, bostançılıq yaradıblar. Qanunla gəlib, rəhbərimə demişəm ki, mənim dövrümdə də 120 ərizə daxil olub. 1 sot da olsa ordan kiməsə torpaq vermək niyyətində deyiləm. Çünki bu, qanun pozuntusudur. Gərək, mən də başqaları kimi torpaq verəydim, sonra da sizin yanınızda qızaraydım? Hər birinizdən bir daha üzr istəyərək ərizəmi yazmışam, səbəbini də qeyd etmişəm. Qərarınıza böyük hörmətlə yanaşıram, amma çox təəssüf...***

Rəhbərliyinizlə birlikdə, sizlərə də özümdə olan insan resursunu dövlət quruluşuna və dövlətçiliyin bu sahəsinə axıra qədər tətbiq edə bilmədim. Çox təəssüf..."

Çıxışdan sonra Ramiz Mehdiyev isə əlavə edib ki, qeyd olunan məsələlər həqiqətə uyğundur: ***"Bunu nəzərə almalıyıq. Uzun müddət bu söhbətlər olub. Mənə də məlumat verib, öz fikirini söyləyib".***

Varlının kasıbın cibindən nə xəbəri

Cərimə və rüsumları artırmaq çıxış yoludurmu?

Diqqət etmisinizsə, son zamanlar parlament iclaslarında deputatların aktivliyi nəzərəçarpacaq dərəcədə artıb. Bu da bir çox yüksək çinli məmurların görəvdən götürülməsi və onların təhlükəli fəaliyyətləri (rüşvətxorluq, korrupsiya, inhisarçılıq və s.) ilə bağlıdır. Deyəsən axı, bəzi deputatlarımızın onlara dayılıq edən məmurlara güvənləri azalıb. Bu səbəbdən də təyinatlı deputat statusundan, Millət Vəkili statusuna adlamaq istəyir. Bunun üçün də bir çox sosial layihələrin müzakirəsində aktivlik edərək reytinq qazanmağa çalışılır. Məsələn, 2017-ci ilin 1 iyul tarixindən ölkəmizdə pensiya yaş həddinin artırılmasına bəh-bəhlə səs verən deputatlarımız, son iclasların birində bu addımın yanlış olduğunu və qanunun yenidən müzakirəyə çıxarılmasını təklif etdilər. Hökumətimiz isə ölkənin maliyyə vəziyyətini bəhanə gətirib, bu müzakirələrdən qaçaraq, pensiyaçıların, daha doğrusu artıq 3 ildir ki pensiya almalı olan vətəndaşlarımızın halal pullarını quldur məmurların qənimətinə çevirib və deyəsən, yaş həddinin aşağı salınmasında deyil, daha da artırılmasında maraqlı görünür. Bu da onu deməyə əsas verir ki, deputatların çıxış və etirazları icra strukturları üçün heç bir əhəmiyyət kəsb etmir.

İyun ayının 25-də keçirilən parlament iclasında vəkillərin 500 manat cərimələnməsi haqqında "Mülki Prosessual Məcəlləyə" təklif olunan yeni maddənin müzakirəsi bir çox deputatlar tərəfidən etirazla qarşılanıb. Deputatlar qeyd ediblər ki, məhkəmyə açıq-aşkar əsassız vəsatət və şikayətlər verən, yaxud işə düzgün və tezliklə baxılmasına və onun həll edilməsinə aşkar surətdə maneçilik törədən tərəfi, onun nümayəndəsini və ya vəkilini 55 manat cərimə olunması barədə artıq, digər qanunvericilik aktında maddə var. Əsas narazılıq isə cərimənin 500 manata qaldırılması olub. Deputatlar bunun düzgün olmadığı qənaətindədirlər.

Bunu da diqqətinizə çatdırım ki, ümumiyyətlə Azərbaycanda tətbiq olunan rüsum və cərimələr insanların maddi imkanlarına adekvat deyil. O cümlədən də müxtəlif xidmətlər üçün tələb olunan ödənişlər. Minimum əmək haqqının 250 manat olduğu bir ölkədə rüsum və cərimələrin, ödənişlərin bundan qat-qat yüksək olması, sözün bütün mənalarında absurddur, aşkar soyğunçuluqdur.

Məsələn, bu yaxınlarda mətbuata açıqlama verən təhsil nazirinin təhsil müəssisələrində təhsil haqqının illik 2500-3000 olmasını normal hal sayması kimi. Mən bilmirəm, təhsil nazirinin aylıq maaşı nə qədərdir. Buna görə də sual edirəm, ayda 250-300 manat maaş alan valideyin 2 tələbə övladı üçün ödəniş pulunu haradan tapsın? Şəhərin küçələrində bahalı maşınlar da, şəhərin ətrafında bahalı evlər də ola bilər. Gənc nazir deyəsən unudur ki, həmin maşınların yanında dilənən, təkər qaraldan, şüşə silən insanlar da var. Həmin insanlar da bu ölkənin vətəndaşlarıdırlar və onların da təhsil almaq hüquqları var. Ölkəmizdə ən yaxşı halda əhalinin 20 faizi yuksək həyat tərzi yaşayır və onların da övladları daha prestijli əcnəbi ölkələrdə təhsil alır. Azərbaycanda, sadəcə təhsil haqqını ödəyə bilmədiyindən on minlərlə tələbə təhsildən kənarda qalırsa, bu təkcə onun və ailəsinin deyil, həm də bu ölkənin, dövlətin faciəsidir.

Ölkəmizdə elə bir sistem yaranıb ki, heç kim nə dövlətdən, nə də qanunlardan çəkinmir. Məsələn, ölkəmizdə mövcud olan tibb müəssisələrinə diqqət edin. Sadə bir prosedur üçün xəstədən bir aylıq maaşı, pensiyası qədər (250-300 manat) pul tələb edirlər. Deyək ki, həkimdə insaf, mürvət yoxdur, bəs dövlət hara baxır, bu qiymətləri kim və necə tənzimləyir, yaxud tənzimləməlidir?

İşığın, suyun, qazın qiyməti ilbəil artır. Bununla belə maaş və pensiyalar artmır, artsa da cüzi miqdarda. Təsəvvür edin ki, bir nəfəri hansısa qayda pozuntusuna görə 200-300 manat cərimələyirlər. Bəs onun ailəsi bu bir ayda necə dolanmalıdır?

Bu qanunları qəbul edən deputatxanamız, bu qanunlara səs verən deputatlarımız nə üçün indiyə qədər susublar və kim nəyi təklif etsə, ona səs veriblər? Çünki deputatlarımızın demək olar ki, hamısı həmin təklifverənlərin xeyirduası ilə deputat təyin olunublar. Onların bəziləri elə çıxışlar edir ki, elə bil Azərbaycan vətəndaşlarının yaşam səviyyəsindən xəbərləri yoxdur, hansısa bir planetdən indicə yerə eniblər.

Mənə belə gəlir ki, cərimə və rüsumları artırmaq yox, qanunların işləməsinə nəzarəti güclədirmək lazımdır. Qanunlar hamı üçün eyni olmalıdır. Məmurların qanundan kənarda qalması, onların heç bir qanuna məhəl qoymaması, insanların dövlətə inamını sarsıdan əsas amillərdən biridir. Yaddan çıxarmayın ki, dünyanın heç bir yerində cərimə və rüsumları artırmaqla insanları qanuna hörmət etməyə məcbur edə bilməyiblər. Buna görə də istər qanunverici, istərsə də icraçı qurumların əsas vəzifəsi o olmalıdır ki, hər bir vətəndaş kimliyindən asılı olmayaraq qanunlara hörmət etsin. Qanunverici orqan qanunları elə qəbul etməlidir ki, bu qanunlar ölkə vətəndaşlarının hüquqlarını qorusun, təkcə məmurların yox.

P.S.Həzrəti Əli deyir:"Allahın Rəsulu məni Yəmənə vali göndərəndə soruşdum, namazı necə qıldırım? Buyurdu,"Onlardan ən zəifi necə qılırsa, o cür qıldır".

Qanun da ölkə vətəndaşının ən zəifinin belə, hüquqlarını qorumalıdır. Cərimə və rüsumlar da o həddə olmalıdır ki, insanlar onu ödəyə bilsin.

Bu gün isə Azərbaycanda real vəziyyət belədir- harınlar, ümumiyyətlə nə rüsum, nə cərimə ödəyir, kasıbların isə ödəməyə heç nəyi yoxdur. Onda bu qanunlar kimə lazımdır?!

Y.Seyid

ADNF-nin havaya sovurduğu dollarlar

Rəqabət mühitinin formalaşması bütün problemlərin həlli deməkdir

Azərbaycanda əsas valyuta mənbəyi dövlətin neft və qaz satışından əldə etdiyi gəlirlərdən formalaşır. Bu il dövlət büdcəsinin xərclərinin qarşılanması üçün Dövlət Neft Fondundan (ARDNF) təxminən 11,5 milyard ABŞ dolları vəsait transfer edilib ki, bu da dövlət büdcəsi xərclərinin 42,6 faizinə bərabərdir. Xarici və yerli neft şirkətlərinin ödədiyi vergiləri də nəzərə aldıqda, dövlət büdcəsinin 60 faizə qədəri neft sənayesi hesabına formalaşır. Lakin hələ bununla da ARDNF-nin xərcləri bitmir: Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri *(Layihənin maliyyələşdirilməsi 2006-cı ildə başa çatıb)* - 297,9 milyon manat, Qaçqın və məcburi köçkünlərin sosial-məişət vəziyyətinin yaxşılaşdırılması və məskunlaşdırılması *(ARDNF tərəfindən layihənin maliyyələşdirilməsi davam edir)* - 2 702,7 milyon manat, Oğuz-Qəbələ-Bakı su kəməri layihəsi *(Layihənin maliyyələşdirilməsi 2011-ci ildə başa çatıb)* - 779,6 milyon manat, Samur-Abşeron suvarma sisteminin yenidən qurulması (*ARDNF tərəfindən layihənin maliyyələşdirilməsi başa çatıb)* - 1 469,6 milyon manat, Dövlət İnvestisiya Şirkətinin nizamnamə kapitalının maliyyələşdirilməsi *(Layihənin maliyyələşdirilməsi 2006-cı ildə başa çatıb)* - 90,0 milyon manat, Bakı-Tbilisi-Qars yeni dəmir yolu layihəsi *(ARDNF tərəfindən layihənin maliyyələşdirilməsi başa çatıb)* - 748,6 milyon manat, Xaricdə təhsil üzrə Dövlət Proqramı *(ARDNF tərəfindən layihənin maliyyələşdirilməsi başa çatıb)* - 212,7 milyon manat, ”Star” neft emalı kompleksinin tikintisi *(ARDNF tərəfindən layihənin maliyyələşdirilməsi başa çatıb)* - 1 663,3 milyon manat, AÇG layihəsində ARDNŞ-nin iştirak payının maliyyələşdirilməsi *(Layihənin maliyyələşdirilməsi 2007-ci ildə başa çatıb)* - 87,6 milyon manat, Cənub Qaz Dəhlizi *(ARDNF tərəfindən layihənin maliyyələşdirilməsi başa çatıb)* - 1 530,3 milyon manat, Azərbaycan Respubikasının Mərkəzi Bankına transfer - 3 949,5 milyon manat, 2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyin artırılması üzrə Dövlət Proqramı - 4,8 milyon manat.

Rəqəmlərdən göründüyü kimi, 2007-ci ildən etibarən dövlətin həyata keçirdiyi bütün layihələr birbaşa ARDNF-də karbohidrogen satışından əldə edilən vəsaitlər hesabına reallaşdırılıb və bu hazırda da davam edir. Xərc strukturuna nəzər saldıqda məlum olur ki, bu xərclərin əsas hissəsi vacib sahələrə yönəldilib. Hərçənd ki, bu layihələrin (o cümlədən də illər üzrə dövlət büdcələrinin) icrasında xeyli korrupsiya hallarının olduğu barədə əsaslı iddialar irəli sürülüb. Bununla belə, nəzəri baxımdan ARDNF-nin ən səmərəsiz xərcləri milli valyutanın sabit saxlanılması üçün xərclənən vəsaitləridir. Hansı ki, 2007-ci ildən bəri bu istiqamətə on milyardlarla dollar vəsait xərclənib. Təkcə bu ilin iki rübü ərzində ARDNF 2,766 milyard ABŞ dolları məbləğində valyuta satışı həyata keçirib. Bu, ötən ilin eyni dövrü ilə müqayisədə 31 faiz azdır. Yalnız iyun ayında isə ARDNF-in valyuta satışının məbləği 463,6 milyon dollar təşkil edib ki, bu ötən ilin iyun ayı ilə müqayisədə 24,2 faiz çoxdur. Yəni son bir ay ərzində az qala yarım milyard ABŞ dolları həcmində vəsait manata çevrilib. Bu qədər vəsait iki rüb ərzində kənd təsərrüfatına yönəldilsəydi, çox ciddi nəticələr əldə etmək olardı.

Hökumət bu mənasız xərcə niyə gedir və onu bu xərcdən xilas etməyin yolu nədən ibarətdir? Birincisi, onu qeyd etmək vacibdir ki, milli valyutanı və onunla bərabər ölkənin maliyyə vəziyyətini, o cümlədən də iqtisadiyyatın sabitləşdirilməsinin bu üsulunun seçilməsi iqtisadi deyil, siyasi qərardır. Yəni bir tərəfdən iqtisadiyyat inhisara alınaraq rəqabət mühiti sıradan çıxarılır, hökumət oliqarx-inhisarçılar vasitəsi ilə iqtisadiyyata nəzarət edir ki, arzuolunmaz qüvvələrin iqtisadiyyatın əsas subyektlərinə çevrilməsinə imkan yaranmasın. Bu halda iqtisadi rəqabət mühiti sıradan çıxarıldığına görə inkişaf tempi zəifləyir, keyfiyyətli məhsul istehsalına maraq azalır. Bu səbəbdən də ölkə daxilində keyfiyyətsiz məhsullar hakim mövqedə durur. Əhali isə həmin məhsulları almağa məhkum olduğundan keyfiyyətsiz məhsul istehsalçıları olan inhisarçılar müflisləşmir. Digər tərəfdən isə problem ondan ibarətdir ki, inhisarçılar rəqabətsiz mühitdə keyfiyyətə diqqət yetirmədiklərinə görə, onlar dünya bazarına çıxa bilən, rəqabətədavamlı məhsul istehsal edə bilmədiyindən, onların məhsulları ölkəyə valyuta gətirmək qabiliyyətinə malik olmurlar. Bu səbəbdən də Azərbaycan hökuməti ölkə daxilində valyutaya olan tələbatı neftdən gələn dollar hesabına ödəyir. Bu, həm dövlətə kifayət qədər əhmiyyətli xərc formalaşdırır, həm də daxili tələbatı idxaldan asılı vəzəyyətə salır. Bir tərəfdən yerli istehsal keyfiyyətsiz olduğundan ölkəyə valyuta gətirə bilmir, digər tərəfdən isə yerli tələbatı ödəmək üçün idxal cəlbedici olur. İdxal həyata keçirməkdən ötrü isə mütləq xarici valyutaya, əsasən də dollara tələbat yaranır. Bu tələbatı isə hökumət ARDNF-nin neft satışından əldə etdiyi valyutanı hərraca çıxarmaqla ödəyir.

Halbuki ölkədə inhisarçılığa son qoyulsa, azad rəqabət mühiti yaradılsa, sahibkarlıq fəaliyyəti qarşısında duran digər problemlər aradan qaldırılsa, ölkə iqtisadiyyatının dollara olan tələbatını məhsul ixracatından gələn valyuta ödəyər ki, bununla da hökumət hərraca çıxardığı valyutanı daha səmərəli sahələrə yönəldə bilər. Amma bu halda hökumət arzolunmaz qüvvələrin əhəmiyyətli iqtisadi subyektlərə çevrilməsinə mane ola bilməyəcək, məhz elə problem də buradan qaynaqlanır.

Akif Nəsirli

Şirkət meşəliyi qırıb, yerində çay kolları əkir...

Lənkəran rayonu Haftoni kəndinin yanında olan meşəliyin qırılması və yerində çay kollarının əkilməsi barədə bizə şifahi məlumat daxil olub. Biz bu hadisəni araşdırdıq və məlum oldu ki, sözügedən ərazi Ekologiya və Təbii Sərvətlər Nazirliyinin ərazisidir.

Bunu Lənkəran rayon icra başçısının müavini, Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri Xalid Rəhimov deyib.

Xalid Rəhimov bildirib ki, həmin ərazi Haftoni kəndinə məxsus deyil, ora Meşə Fonduna aiddir: ***“Onun mülkiyyətçisi Ekologiya və Təbii Sərvətlər Nazirliyidir. Sözügedən ərazi boş torpaq sahəsi olduğuna görə “Beta Tea” şirkəti oranı uzunmüddətli icarəyə götürüb. Orda meyvə bağları və çay kolları əkiləcək. Həmin ərazidə təmizlik işləri aparıb, əkinə cəlb edirlər”.***

Qeyd edək ki, Lənkəran rayonu Haftoni kənd sakinlərinin verdiyi məlumata görə, “Beta Tea” şirkəti kəndin yanında olan meşəliyi qırır, yerində çay kolları əkir.

ETSN-dən verilən açıqlamada bildirilir ki, məsələ araşdırılır.

BQXK Qarabağdakı missiyasına maliyyəni artırıb

Beynəlxalq Qızıl Xaç Komitəsi (BQXK) Qarabağdakı missiyasına ayrılan maliyyəni bu il 5 dəfə artıraraq 50 milyon avroya çatdırıb.

Bu barədə Rusiya mətbuatına müsahibəsində BQXK prezidenti Peter Maurer bildirib.

“Əvvəllər büdcəmiz 10-11 milyon avro olubsa, hazırda 50 milyon avroya yaxınlaşırıq və regiondakı mövcudluğumuzu da xeyli artırmışıq. Məcburi köçkünlərə, doğma yurd-yuvalarına qayıdanlara kömək edirik. Həmçinin hər iki tərəfdəki dustaqlara baş çəkmək, ailələrilə əlaqə saxlamalarında iştirak etməyimiz də az məsələ deyil. İmkan və zərurət yaranarsa, buradakı mövcudluğumuzu bundan sonra da artıracağıq. Amma bir az yavaşca, çünki bu kimi əməliyyatlar üçün maliyyə əldə etmək çox çətindir”, – təşkilat rəhbəri deyib.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

XVII istiqamət. Layihə:

Ekologiya və ətraf mühitin mühafizəsi

Ağgöl florası brakonyerlər tərəfindən talanır

Drenaj şəbəkəsinin yaxşılaşdırılması Ağgöldə su qıtlığının aradan qaldırılmasına töhfə verə bilər

Ağgöl Dövlət Təbiət Qoruğu -1978-ci ilin 2 mart tarixində gölün 4400 hektara bərabər olan su ərazisinə ciddi qorunma statusu verilib və Ağgöl Dövlət Təbiət Qoruğu yaradılıb. 2003-cü ilin 5 iyul tarixində Azərbaycan Respublikası Prezidentinin 1298 saylı sərəncamı ilə Ağgöl Dövlət Təbiət Qoruğunun sahəsi 17924 hektara qədər artırılıb və Milli Parkın ərazisi yalnız bataqlıqlar deyil, həmçinin tipik-çöl və yarımsəhra landşaftlarından ibarətdir.

Ağgölün yerləşdiyi ərazinin yayı quraq keçən yarımsəhra və mülayim - isti iqlim tipi hakimdir. Düzənliyin günəş radiasiyasının illik miqdarı 131, radiasiya balansı isə 45 kkal/kv.sm-dir. Havanın orta illik temperaturu 14 dərəcəyə çatır. Yağıntının illik miqdarı 330 mm-dən artıq deyil. Buradakı iqlim şəraiti ərazidəki quşların və məməli heyvanların xeyli miqdarda məskunlaşması üçün optimal şərait yaradır. Qoruğun ümumi sahəsinin çoxunu Ağgöl hakimdir. Sözügedən göl öz sahəsinə görə, Azərbaycanın ən böyük göllərindən hesab edilir. Ağgölün ən dərin hissəsində dərinlik 1,5-2 m, orta dərinliyi isə 0,8 m-dir. Hər il yayın sonuna qədər gölün suyu xeyli azalır və gölün orta dərinliyi 20-25 sm-ə düşür.

Gölün yerləşdiyi ərazidə yarımsəhra, şorlaşmış torpaq və göl şəraitinə uyğunlaşan bitki örtüyü səciyyəvidir. Ərazidə 30-a qədər bitki növünə rast gəlinir.

Ağgöl Dövlət Təbiət Qoruğunun ərazisində əsasən çimli-bataqlıq, boz-çəmən torpaqlar yayılıb. Göldən uzaqlaşdıqca torpaqların tip və yarımtiplərinin, onların fiziki xüsusiyyətlərinin dəyişilməsi aydın nəzərə çarpır. Yovşanlı, şoranotlu, efemerli bitkilər inkişaf edir. Onlar ərazidə müəyyən heyvan və quşların məskunlaşmasında müsbət rol oynayır.

Ağgöl qızılqaz, boz, qaşqa, qırmızıdöş qazlar və s. ilə yanaşı enliburun, qırmızıdimdik, qızılbaş sultan toyuğu, turac, bəzgək, çobanaldadan quşlarla zəngin bir faunaya malikdir. Göl ətrafında məməli heyvanlardan canavar, qunduz, tülkü, porsuq, dovşan və s. də təsadüf etmək olur. Bununla yanaşı Ağgöldə naxa, sıf, sazan və digər balıq növləri geniş yayılıb.

Ağcabədi və Beyləqan inzibati rayonları ərazisində yerləşən Ağgöl Milli Parkını mütəxəssislər haqlı olaraq "ornitoloji oazis" hesab edir. Ağgöl ərazisi bir sıra nadir və nəsli kəsilməkdə olan su-bataqlıq quşlarının həm qışlama, həm də yaylama arealıdır. Təbiət Qoruğunun yaradılmasında əsas məqsəd Ağgöl və onun ətraf ərazilərində məskunlaşan yerli və köçəri subataqlıq quşlarının, xüsusilə, məməli heyvanların və onların yaşayış yerlərinin (biotoplarını) davamlı inkişafını təmin etməkdən ibarətdir. Ümumilikdə 500 mindən çox quşun qışladığı bu ərazidə 140 növdən çox quş məskunlaşır, 87 növ quş yumurta qoyaraq bala verir. Burada rast gəlinən quşların 30 növünün adı "Azərbaycanın Qırmızı Kitabı"na salınıb.

Ağgöl Dövlət Təbiət Qoruğunun təqdimatından da göründüyü kimi, göl çox zəngin heyvanat aləminə, əsasən, quş və balıq növlərinə malikdir. Ona görə də təbiət qoruğunun əsas problemi brakonyerlər tərəfindən talanmasıdır. Biz mətbuatda ildə bir neçə dəfə Ağgöldə brakonyerlərin yaxalandığı barədə informasiyalara rast gəlirik. lakin müşahidələr onu deməyə əsas verir ki, sözügedən ərazidə hər gün qeyri-qanuni ovla məşğul olan kimlərisə görmək mümkündür. Dəfələrlə təsadüfən yolumuz Ağgöl tərəfdən düşüb, hər dəfə də bu ərazidə elektrik gücləndirici ilə balıq tutanlara, quş ovu ilə məşğul olan adamlara rast gəlmişik. Onlarla söhbətimizdən bəlli oldu ki, bunlardan heç biri qanuni ovla məşğul deyil, hətta ovçu kimi qeydiyyatdan belə, keçməyiblər. Göldə elektrik gücləndirici ilə balıq ovu etmək xüsusilə ciddi

zərər verir. Çünki elektrik gücləndiricisi təsir dairəsində olan bütün balıqları öldürür, brakonyerlər isə yalnız iri balıqları götürür, xırda balıqlar isə heç kimə gərək olmadan məhv edilir. Yəni bu qurğudan istənilən su hövzəsində balıq tutmaq üçün istifadə etmək balıqların nəslini kəsmək deməkdir. Ona görə də bu qurğudan istifadə ölkə ərazisində qadağan edilməli, belə qurğudan istifadəyə, saxlanmaya və quraşdırmaya görə cəzalar sərtləşdirilməlidir.

Eyni zamanda, Ağgöl Dövlət Təbiət Qoruğu və digər yasaqlıqlarda, qoruqlarda və Milli Parklarda nəzarət mexanizmi gücləndirilməlidir. Hazırda sözügedən ərazilərdə nəzarəti həyata keçirən dövlət məmurlarının əmək haqqı kifayət qədər azdır. Məsələn, milyardlarla manat dəyəri olan sərvəti qorumaq vəzifəsini icra edən nazirlik nəzarətçisinə 500-1000 manat arası əmək haqqının verilməsi, bu nəzarətin nə dərəcədə səmərəli qurulmasından xəbər verir. Həmin nəzarətçilər brakonyerlərə göz yummaqla gündə maaşlarından bir neçə dəfə artıq qazanc əldə edə bilərlərsə, nədən onlar maaşla qənaətlənərək, düzgün işləməlidirlər? Qoruq nəzarətçilərinin göz yumduğu brakonyerlər onlara gündə bir neçə min manat rüşvət verirsə, görün özləri dövlət sərvətini hansı həcmdə talayırlar? Çünki brakonyer həm verdiyi rüşvəti çıxarmalı, üstəlik, ən azı, verdiyi rüşvətdən bir neçə dəfə artıq da, özü qazanmalıdır.

Fikrimizcə, ölkədə bu cür sərvətlərin talanmasının qarşısını almaq üçün ilk növbədə səmərəli nəzarət mexanizmi qurulmalıdır. Buraya peyk müşahidələrindən tutmuş əraziyə kameralar vasitəsi ilə nəzarət edilməsinə qədər bütün vasitələrdən istifadə edilməlidir. Digər tərəfdən isə nəzarətçilərə onların həyat və yaşayışını təmin edəcək qədər əmək haqqı ödənilməlidir ki, o, maaşı ilə kifayətlənə bilsin və bu məvacibi itirməkdən qorxsun. Düzdür, bütün bunlar xeyli xərc tələb edir, amma həmin sərvətlərin qorunaraq, dövlət səviyyəsində, floranın ritmik inkişafına xələl gətirmədən istifadə edilməsi nəzarətçilərin saxlanmasına çəkilən xərclərdən on dəfələrlə çox vəsait gətirə bilər. Hazırda qoruqlardan əldə edilən gəlirlər çox cüzi həcmə malikdir. Bəzən düşünürsən ki, sanki dövlət bu Qoruq, Yasaqlıq və Milli Parkları brakonyerlərə qazanc mənbəyi, məmurlara isə istirahət məkanı kimi yaradıb. Əslində isə iş tamamilə başqa tərzdə qurulmalıdır. Məsələn, Ağgöl Dövlət Təbiət Qoruğu səmərəli şəkildə brakonyerlərdən qorunsa, burada bir neçə il ərzində heyvanat aləmi o qədər çoxalar ki, göldən ildə min tonlarla balıq, on minlərlə quş ovlamaq olar. Bütün bu işlər ya dövlət səviyyəsində həyata keçrilə, yada hər hansı bir ovçuluq şirkəti ilə məqavilə əsasında reallaşdırıla bilər. Hazırda isə sözügedən sərvətlərdən yalnız bir qrup insan - brakonyerlər, nəzarətçilər və yüksək ranqlı məmurlar yararlana bilirlər.

Bununla yanaşı, Ağgöl Dövlət Təbiət Qoruğunda su qıtlığının aradan qaldırılmasında əsas rol oynayan vasitə Ağcəbədi və Beyləqan inzibati rayonların qurunt sularının drenaj şəbəkəsidir. Çünki bu rayonların ərazisindəki qrunt sularının axıdılması üçün qurulan drenaj şəbəkələrinin bütün suları Ağgölə axıdılır. Bu səbəbdən də drenaj şəbəkəsinin genişləndirilməsi və təmizlənməsi Ağgöldə su qıtlığının nisbətən aradan qaldırılmasına yardımçı ola bilər. Digər tərəfdən isə bu proses Aran iqtisadi rayonunun mərkəzi hissəsində torpaqların münbitləşməsinə də öz töhfəsini verə bilər.

Akif Nəsirli

Yazı Azərbaycan Respublikası Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub

Dövlət baba öz işini görürmüş

Azərbaycanda güclü hakimiyyət qurulub, dövlət müstəqilliyinin təməl prinsipləri daha da möhkəmlənib, ordu quruculuğu sahəsində heç kəsin gözləmədiyi addımlar atılıb.

Sən demə, tənqidlər klassik və primitiv hədəflərə işləyirmiş - Ay nə bilim, ordu yoxdur, Qarabağdan bircə qarış torpaq azad etmək olmayacaq, Azərbaycan düzgün xarici siyasət aparmır və s. Dövlət isə öz işini görürmüş...

Bütün bunları anladıq, ancaq daha ciddi bir təhlükə ilə üz-üzəyik.

Kütləyə sahib çıxmalıyıq, "küt" sözündən olan heç bir nəsnə pərakəndiliyi sevmir. Gec-tez zorla kəsir, doğrayır.

Elə müxalifətin də ən böyük səhvi onda idi ki, Azərbaycan hakimiyyətini 28 ildir ciddiyə almırdı. Hər payızda hakimiyyətin gedəcəyi ilə bağlı qəribə ümidlər dombalırdı. 2020-ci ilin 27 sentyabrından sonra isə fərqli mənzərə, dəhşətli iradə ilə rastlaşdılar – bu dəfə qarşılarında monolit hakimiyyətin müharibədən və düşmənlə ağır döyüşdən çıxmış cüssəsini gördülər.

Sosial şəbəkələrdə. Jan Klod Van Dammın oynadığı mahnı var İlqar Dəniz adlı bir gənc oğlan oxuyur.

Mahnının Yutubda 2 milyon 800 minə yaxın baxışı var. Bu tip mahnılar bütün Bakını işğal edib, kütlə əsarət altındadır.

Anladıq, kütlənin zövqü korlanıb!

Van Dammın bu mahnıya oynaması biabırçılıq deyil, adam nə oynadığını bilmir, sadəcə ritmə oynayır. Məgər biz illərdir ingilisin, amerikanın, rusun sözlərini anlamadığımız mahnılarına oynamadıqmı?

Yeni bir video yayılıb. Suada nişanlısına (Van Daamın oğluna) Türkiyə türkçəsində danışmağı öyrədir. Bəs Azərbaycan dili? Hələ Van Dammın oğlunun "Qarabağ Azərbaycandır" deyə yazıb şəkil çəkdirdiyi bir varağın həsrətini necə çəkirdik, onu demirəm. Bu vaxta qədərki fəaliyyətiniz Van Dammın oğlunun əlindəki varağa da dəymədi?

Onsuz da universitetlərdə, ailələrdə uşaqlar, qadınlar bərbad günə düşüb, Türkiyə serialarının təsiri altındadır hamı, hər kəs bu dildə danışır. Serialların gülünc və daş kuklalarına dönmüşük: vilkanı xırtdəyə kimi boğaza soxub tikəni uduruq, artıq evdə ayaqqabı ilə gəzirik, cavan qızlar şirkəti olan oğlanların axtarışındadır. Başqasını sevirsənsə, hər kəsə xəyanət etməyin bütün mümkün və bəraətverici yollarını məhz bu seriallardan əxz elədik. Əhsən!

Rus dilində danışmaq olub elitarlıq, müasirlik... Danışa bilməyənləri isə qoduq yerinə də qoyan yoxdur. Bura hansı ölkədir, a kişi! İt oğlunun qəbuluna girib "salam" verirsən, sənə "zdrastuvuye" deyir. Yüz dəfə də Azərbaycan dilində salamlaşıb onu bu dildə danışmağa vadar etsən, yenə də mümkün olmayacaq. Vay o günə ki, sən rus dilini bilməyəsən.

Anladıq, kütlənin dili korlanıb!

Narkomaniya, türk seriallarından gələn və Azərbaycan ailələrinin bütün əxlaqi dəyərlərini darmadağın edən mənfi təmayül... Dəhşətə bax, kütlənin bir qismi övladını rus bölməsinə oxumağa göndərir, bir qismi də Türkiyə türkçəsində danışır. Hansısa kəndin dızmadurux kəndindən gəlib Bakıda ali təhsil alan gənclərin danışığına qulaq verin, dinləyin, beş kəlmədən dördü belədir: *Of ya, aşkım, neredesin, gəl dana...".*

Anladıq, kütlənin əxlaqı korlanıb!

İnanıram ki, Brus Li bizim ölkədə yaşasaydı, indi idman federasiyalarından birinin rəhbəri olmaqla yanaşı, biznesi də olardı, 5-10 aptekə sahiblənərdi, bina tikərdi, Nərimanov rayonundan deputat da seçilə bilərdi.

Musa peyğəmbər sağ olsaydı, bəlkə də indi YAP-ın icra katibinin müavini vəzifəsində işləyərdi.

Hələ İsa peyğəmbərin bu ölkədə Səhiyyə naziri ola biləcəyi perspektivindən danışmıram. Çətindir və vallah belədir...

Hələ də qanmaq istəmirik ki, Mirzə Cəlilin təsvir elədiyi bataqlıqdan da daha dərində çabalayırıq, biz qaçsaq da Mirzə Cəlilə çata bilmirik, yüz il qabaqdadır bizdən! Dilinizə, dinimizə, tariximizə sahib çıxaq, qoruyaq!

Cənablar, kütləyə sahib çıxın!

Təhlükəni siyasilərdən yox, ordan gözləmək lazımdır...

Sözügedən və çoxunuzun da eşitdiyiniz o, mahnının sözlərindən isə iki bənd paylaşıram. Ki, o boyda Van Dammı nəyə oynatdığımızı da anlayaq.

Rusun fitinə, amerikanın cazına oynayan xalq görün Van Damma nəyi oynadır...

Məni QAİ saxlayıb dünən,
Dedi naruşenni etmisən.
Naxadi cavab verdim mən:
Həyat özü naruşenniyadı,
Bu nə dvijeniyadı!?
Qabağa veribdir vətənim,
Paqonlar kəsiliblər qənim.
Çəkmək adətimdir mənim,
Bomba nastreniyadır,
Bu nə dvijeniyadır?

Samir Feyruzov

Nazirin çıxışında görmədiyim məqamlar

Yeni və gənc təhsil nazirimizin mediaya son müsahibəsində gördüyüm bəzi maraqlı məqamlar...

Nazir qeyd edir ki, Azərbaycanda saysız varlı adamlar var, amma onların hamısı övladlarının təhsilinə sahib olduqları imkanlara uyğun pul xərcləmirlər.

Çıxardığı nəticə üçün söykəndiyi arqumentlər çox ilgincdir. Nazir deyir ki, Bakıda küçələrdə dəyəri 20 000 manatdan çox olan həddən artıq çoxlu sayda bahalı maşın var, amma özəl məktəblərdə cəmi 0.6% şagir təhsil alır.

Məncə 2 göstərici arasında bu əlaqəni qurmaq yanlışdır. Çünki:

1) 20 000 manatdan çox dəyəri olan maşına sahib olmaq hələ övladını illik xərci 4-5 min manatdan başlayıb 20-30 min manata kimi çıxan özəl orta məktəblərdə oxutmağa imkana sahib olmaq demək deyil. Kimsə bunu kreditlə, yaxın adamlardan borc götürməklə də alıb bəzən hətta işgüzar məqsədlər üçün istifadə edə bilir;

2) Varlı adamlar övladlarının adını formal olaraq ixtiyari bir dövlət təhsil müəssisəsinə yazdırmaqla ev şəratində bahalı fərdi hazırlığa üstünlük verirlər. Çünki bizim məktəblərin nə özəlinə, nə dövlətinə etimad göstərmirlər. Hətta daha zənginləri içəsində övladının yuxarı siniflərdə xaricdə oxudanlar da var.

Müsahibədə mənə manipulyativ təsir bağışlayan 2-ci məqam 5 yaşlı uşaqların məktəbəqədər hazırlığının birdənbirə 90%-ə çatdırılması ilə bağlı faktdır. 5 yaşını tamam etmiş, bir neçə ay sonra 1-ci sinfə qəbul olacaq uşaqların məktəbəqədər hazırlığı ən yaxşı halda orta təhsili 5 yaşda başladıb 12 illik orta təhsilə keçid etməkdən başqa nəsə deyil. Çünki məktəbəqədər hazırlığın məqsədi və verəcəyi fayda heç də nazirin müsahibəsində deyilən kimi uşaqların daha 1 il tez hərf öyrənməsində deyil. 3 yaşından başladılmalı olan məktəbəqədər təhsil uşaqlara düşünmək və özünüifadə etmək bacarıqları formalaşdırmaq, müxtəif proqramlar vasitəsilə 3-6 yaşı uşaqların fiziki və əqli qabiliyyətlərini inkişaf etdirmək, fərqli sosial-demoqrafik qrupa məxsus ailələrdən gələn uşaqların yetənəkləri arasında fərqləri aradan qaldırmaq, onların sosiallaşma və ünsiyyət bacarıqlarını gücləndirərək daha yetkin vəziyyətdə orta təhsilə hazırlamaq məqsədi güdür.

Nəhayət, nazir lisey və gimnaziyalar kimi elitar müəssisələrin sayının artmasında əsas hədəflərədən biri kimi öygü ilə danışır. Amma mən ondan gözləyərdim ki, təhsildə məhz

bu tip elitar məktəblərin yaratdığı fərqlərdən, həmin fərqləri aradan qaldırmaq üçün hökumətin hansı strategiyaları izləməli olduğu barədə danışsın. Məsələn, Azərbaycanda orta təhsilin keyfiyyəti və təhsilə əlçatanlıq baxımından çox ciddi bölgəsəl, coğrafi fərqlər var.

Yeni nazirin ən uğurlu işi bu fərqləri ortaya qoyan samballı bir hesabatla cəmiyyətin qarşısına çıxıb bu köklü problemin həllinə yönəlik strateji baxışını ortaya qoyaydı.

Müsahibədə görmək istədiyim daha vacib bir məsələ təhsil menecmentinə baxış idi. Xüsusilə orta məktəblərin idarə olunması, fəaliyyətində şəffaflıq və icma qarşısında hesabatlılıq, onların fəaliyyətinin nəticələrinə görə differensial stimullaşdırma-cəza sistemlərinin olub-olmayacağı ilə bağlı düşüncələri nədən ibarətdir.

Naziliyin nəticəəsaslı büdcə üçün təqdim etdiyi strateji hədəflər da ayrıca bir maraqlı və müzakirə açılası mövzudur.

P.S əvəzi: Təhsilin inkişafı ilə bağlı maraqlı bir araşdırma hesabatı oxuya-oxuya gözüm sosial şəbələkərdə Slavyan Universitetinin işdən çıxarılan rektorunun qarğışdolu açıqlamasına sataşdı. Bir o qarğışa baxdım, bir də qarşımdakı araşdırmaya.

Bataqlığın harasına qədər endiyimiz əyani olaraq gözümdə canlandı.

Həmin hesabatdan yalnız bircə məqamı yazıram:

"ABŞ-da uşaqları yetkinlik yaşına qədər izləməyi hədəfləyən Milli Gənclik Araşdırması Panelinin uzunmüddətli tədqiqatlarına görə, 5 yaşlı uşaqların riyazi təfəkkürü və qabiliyyətləri arasında ailələrin sosial-iqtisadi durumuna görə kəskin fərqlər müşahidə edilib. Bu fərqlərin irəlililəyən dövrlərdə də davam etdiyi və qalıcı olduğu görünür. Erkən dövrdə əldə edilən qabiliyyətlər qarışadakı illərdə daha sürətli və effektiv şəkildə yeni yaşa uyğun qabiliyyətləri formalaşdırmağa imkan verir".

Müəlliflər hesab edir ki, bu fərqi aradan qaldırmağın açarı təhsilə yönəlik siyasətlərlə yoxsulluqla mücadilə politikalarının koordinasiya edilməsi, uşaqların mümkün qədər hamısının keyfiyyətli məktəbəqədər təhsilə cəlb edilməsidir.

Azərbaycanda əgər rəsmi rəqəmlərə inansaq, 1-5 yaşında hər 100 uşaqdan ən yaxşı halda 30 nəfəri məktəbəqədər təhsil görür. Kənd yerlərində həmin göstəricinin 10 nəfər ətrafındadır.

Başqa bir acınacaqlı fakt: 24-25 yaşlı hər 100 nəfər gəncimizin ən yaxşı halda 30 nəfəri orta təhsilldən yüksək təhsil diplomu ilə əmək bazarına daxil olur.

Diplomlu mütəxəssislərin nə dərəcədə keyfiyyətli olması da tamamən ayrı və ağrılı bir mövzu...

Rovshan Agayev

"Xalqın qüsurlarını bağışladıqda peşman olma, onlara cəza verdikdə sevinmə"

1364 il bundan qabaq xalq tərəfindən yekdilliklə ölkə başçısı seçilən həz.Əli bu vəzifənin nə qədər çətin və məsul iş olduğu barədə buyurub: "Bizim işimiz həqiqətən də çətindir, çətinləşdirilmişdir. Çox sərtdir, sərtləşdirilmişdir. Gizlənmişdir, pərdə arxasına alınmışdır. Ona Allaha yaxın mələk, yaxud göndərilmiş peyğəmbər, yaxud da nöqsan sifətlərdən münəzzəh olan Allah tərəfindən qəlbi imanla sınanmış mömin şəxslər dözə bilər... Məni itirməmiş soruşun. Çünki and olsun Allaha Quranda elə bir ayə yoxdur ki, nə üçün və kimin haqqında nazil olduğunu, harada - düzənlikdə; ya dağda nazil olduğunu bilməyim. Həqiqətən də Rəbbin mənə anlayan bir ağıl, danışan bir dil ehsan edib".

Hesab edirəm ki, hazırda ölkədə rüşvət, korrupsiya, proteksionizm və digər neqativlərə qarşı aparılan mübarizədə həz.Əli üsul-idarəsindən də bəhrələnmək olar. Bu idarəetmə metodları xəlifə Əli dövründə olduğu kimi, bu gün də aktualdır. Həmin səbəbdən Həzrətin valilərə (yerli icra başçılarına) göndərdiyi məktubların bəzilərini oxuculara təqdim edirik.

"Ey Malik, Səni elə yerə göndərirəm ki, səndən əvvəl oraya ədalətlə hökm edən, zülmlə hökm sürən bir çoxları gəlib-getmişlər. Sən özündən əvvəlki buyruq sahiblərinin etdiklərini necə görürsənsə, xalq da sənin tutduğun işləri sənin kimi görəcək. Sən onlar haqqında nə deyirsənsə, xalq da sənin haqqında o sözləri deyəcək. Xalqla mərhəmətlə rəftar etməyi özünə adət et. Onlar üçün yemək istəmələrini qənimət bilən yırtıcı heyvan olma. Onların ayağı sürüşə bilər, xəta edərlər; bilərəkdən, ya da səhvən əllərindən bəzi şeylər çıxa bilər. Öz əməllərini Allahın bağışlamasını necə istəyirsənsə, sən də onları bağışla. Çünki sənin mövqeyin onlardan, səni bu işə təyin edənin mövqeyi səndən, Allah isə valini təyin edəndən üstündür.

Xalqın qüsurlarını bağışladıqda peşman olma, onlara cəza verdikdə sevinmə. Səni yoldan çıxara bilən qəzəbə qapılıb, cəza verdikdə sevinmə. Səni yoldan çıxara bilən qəzəbə qapılıb, cəza verməyə tələsmə. Mən onlara buyuruq verənəm, gərək əmrimə qulaq assınlar demə. Çünki bu, könülə məğrurluq verər, dini zəiflədər, neməti pozar. İnsanların eyiblərini görüb izləyən, onları açıb söyləyənlər sənə uzaq adamlar olsun. Onları özünə yaxınlaşdırma. Çünki insanlarda eyib ola bilər, vali isə bunları gizlətməyə ən çox haqqı olan adamdır. Xalqa qarşı duyduğun kindən əl çək, hər günaha görə cəza verməyə çalışma. Xəsis adamla məşvərət etmə, səni üstünlükdən məhrum edər, ehsandan çəkindirər, sənə yoxsulluğu göstərər. Qorxaqla danışma, işlərində zəifliyə salar, edəcəyin işdən səni çəkindirər. Həris adamla da danışma, zülmlə mal-dövlət yığmağı sənə gözəl şey kimi göstərər.

Vəzirlərin ən pisi səndən əvvəl adamlara vəzirlik edənlər, günahda onlarla ortaq olanlardır. Sonra, acı da olsa, sənə gerçəyi söyləyən, sənə az müsaidə edən adamları seç. Onların sözləri səni həqiqətə aparar, haqsızlıqdan saxlar. Heç vaxt yaxşılıq edənlərlə yamanlıq edəni eyni gözlə görmə. Çünki onları eyni tutmaq, yaxşılıq edəni yaxşılıqdan əl çəkməyə vadar edər; yamanlıq edəni isə pisliyə alışdırır. Bu ümmətin qabaqcıl adamlarının tutduğu yolu, xalqın alışdığı, bir-birilə yola getdiyi, işlərini sahmana saldığı şeyləri əksiltmə. Köhnə yolu-rizi salanlar əcrə, savaba nail olmuşlarsa, onu buraxıb xalqa zərər verən yeni adətlər, yeni yollar salmağa çalışma. İdarən altındakı şəhərlərin nizama düşməsi, xalqın tərəqqiyə çatması üçün daim alimlərlə görüş, ağıllı adamlarla məsləhətləşib hərəkət et.

Bil ki, xalq siniflərə ayrılıb. Siniflərin bir qismi digərinin nizama düşməsilə düzələr. Siniflərin hamısı bir-birindən asılıdır. Valilərin gözlərinə işıq verən ən üstünü - şəhərlərdə ədalətli bərpa etmək, xalq arasında sevginin üzə çıxmasına səbəb olmaqdır. Valilərin tapşırıqlarının həqiqiliyi ondan bilinər ki, onların xidmət müddətinin sona çatmasını istəməsinlər, idarəsi onlara ağır gəlməsin, tez çıxıb getməsini arzu etməsinlər.

Sonra hər kəsin sınanmış, bilinmiş dərəcəsini tanı, birinin çəkdiyi zəhməti başqasının adına çıxma, onun yerinə başqasını öymə. Hər kəsə nöqsansız olaraq öz haqqını ver. Birisi böyük olsa da, tutduğu kiçik işi böyük görmə. Kiçik adamın tutduğu iş böyükdürsə, o işi kiçik hesab etmə. Xalqa hökm edə bilənləri idarən altında olan ən üstün adamlardan seç. Vergi və zəkat məmurlarına diqqət yetir. Onları sınayandan sonra təyin et. Onları şəxsi münasibətlərə və təsadüfə görə təyin etmə. Onları təmiz ailələrdən, iman sahiblərindən, təcrübə və həya sahibi olan adamlardan seç. Çünki onlar əxlaqca ən üstün, namusca ən doğru, ən qərəzsiz, ən tamahsız adamlardır. Sonra onlara bol ruzi ver. Çünki bununla onlar nəfslərinə qalib gəlməyə qüvvə tapar, insanların mallarına tamahsılanmazlar. Sonra onların işlərini təftiş et...

Vergi işini də araşdır, məmurlarının vəziyyətini səhmana sal. Çünki vergi işinin və vergi məmurlarının nizama düşməsi, başqalarının nizama düşməsini təmin edir. Şəraitdən asılı olaraq vergi dərəcəsini azaltmaq da olar. Bu sənə çətin olmamalıdır. Bu güzəştlə xalq rifaha qovuşar, ölkə abad olar. Bil ki, bir yerin viran olması oradakı xalqın yoxsul düşməsindən irəli gələr. Bunun səbəbi isə oradakı valilərin özlərinə mal-dövlət yığması, valilikdə qalacaqlarından əmin olmaması, ibrət alınacağı şeylərdən az ibrət almasıdır.

Vaxtının bir hissəsini ehtiyac sahiblərinə həsr et, onlarla görüş, kömək et. Eşitmişəm ki, Peyğəmbər(ə) buyurub: "Bir yerdə ki, zəif qorxub-çəkinərək, dili dolaşa-dolaşa bir söz söyləməyə çalışa, amma qüvvətlidən öz haqqını ala bilməyə, o xalq nə təmizə çıxar, nə də xoşbəxt olar". *Onların sərt danışığına, ağır sözlərinə döz. Onlarla görüşməkdən darıxma, çəkinmə, utanma. Ehsan etdiyin zaman minnət yükü qoyma ki, verdiyin şey vermədiyin vaxt isə xoş sözlərlə üzrlər gətirir ki, alana xoş gəlsin heç olmasa, almayan sevinsin.*

Allah xatirinə, dinini xalisləşdirən vaciblərə diqqət yetir. Xalqa namaz qıldırdığın zaman namazı uzadıb onları bezidrmə. Namazı tez qıldır, fəqət ərkanını da pozma, çünki camaatın arasında xəstəsi, işi-gücü olanı var. Allahın Rəsulu məni Yəmənə vali göndərəndə soruşdum ki, namazı necə qıldırım? Buyurdu: "Onlardan ən zəifi necə qılırsa o cür qıldır". *Bunlardan sonra deyirəm:* "Buyruğun altında olanları gözündən kənara qoyma. *Valilərin bəzi adamları da ola bilər ki, onlar öz bildikləri kimi hərəkət edərlər, zülm edərlər, insafları azdır, xalqla rəftarda ədaləti gözləməzlər. Yaxın adamlarına, yanında qulluq edənlərə torpaq vermə ki, bəzi yerləri, bəzi torpaqları əldə etmək tamahına düşməsinlər. Əks halda, o yerdəki kəndə zərər dəyər.*

Nahaq qan tökməkdən çəkin, çünki əzaba səbəb olmaqda, günah baxımından böyük sayılmaqda, neməti zavala uğradıb dövləti itirməkdə ikinci bir şey yoxdur ki, nahaq qan tökməklə müqayisə edilə bilsin. Özünü bəyənməkdən, səni təkəbbürə sövq edən şeylərə uyub güvənməkdən, tərifə meyl etməkdən çəkin. Etdiyini şişirtməkdən də çəkin. Vəd verdikdə vədindən dönmə. Başa qaxmaq ehsanı yox edər. Qəzəbini boğ, özünü ələ al. Əlini, dilini saxla...".

Həz.Əli Peyğəmbər (ə)-nin hörmətini qazanan Cərudun oğlu Minziri vali təyin etdikdən bir müddət sonra ona yazdı: *"Atanın təmizliyi məni aldatdı. Elə düşündüm ki, sən də onun yolunu tutacaqsan. Lakin sən verdiyin sözə əməl etmədin, nəfsinə boyun əydin, qohum-qardaşına ehsan edirsən. Sənin haqqında mənə deyilənlər doğrudursa, öz dəvən və ayaqqablarının bağı səndən xeyirlidir. Sənin kimi adamın xəyanətindən də arxayınlaşmaq olmaz. İnşəallah, bu məktubu alan kimi yanıma gəl..."*

Həz.Əlinin bizim rüşvətxor məmurlara bənzər bir məmura ünvanladığı məktubdan: *"... Sonra səndən bir para sözlər eşitmişəm. Əgər o işləri tutubsansa, Rəbbini qəzəbləndirmiş, rəhbərinə üsyan etmiş, əmanətini əldən vermisən. Mənə xəbər verdilər ki, Yer üzünün dərisini soymusan. Ayağın dəyən yerlərdə nə tapsan, götürmüsən. Əlinə keçəni yemisən. Yubanmadan mənə haqq-hesab ver və bil ki, Allahın hesabı insanların hesabından daha böyükdür..."*

Vaqif Cəliloğlu
Tex. elmləri üzrə
fəlsəfə doktoru

"BU, PUTİNİN CƏZASIZ QALMIŞ HƏRƏKƏTLƏRİNƏ YAXŞI CAVAB OLARDI"

"Böyük Britaniyanın göstərdiyi reaksiya kifayət qədər cəsarətsizdir"

ABŞ və Rusiya prezidentləri arasında keçirilən sammitdən sonra Almaniya və Fransa tərəfindən Avropa Birliyi-Rusiya sammitinin keçirilməsi təklifi irəli sürülüb. Lakin Avropa Birliyinə daxil olan dövlətlərin əksəriyyəti Putinlə hər hansı sammitin keçirilməsinə etiraz ediblər.

Avropa Birliyi və Böyük Britaniyadakı bir çox siyasi icmalçıların, ekspertlərin, siyasətçilərin fikrinə görə, əgər belə bir sammit baş tutarsa, onda bu, Qərbin zəifliyinin açıq təzahürü və Putinin zəfəri olacaq. Yekunda isə gözlənilən nəticə əldə edilməyəcək.

Sözügedən məsələylə bağlı ABŞ-ın "Bloomberg" nəşri "Putinlə diplomatik danışıqlar aparmağın mənası varmı?" başlıqlı məqalə dərc edib.

Həmin məqaləni qısa ixtisarla təqdim edirik: "Co Bayden və Vladimir Putin arasında keçirilən görüş ərəfəsində Böyük Britaniyanın Müdafiə naziri Ben Uolles (Ben Wallace) Boris Consonla Putin arasında sammit keçirilməsinin mümkünlüyü məsələsini dilə gətirmişdi. Əlbəttə, əgər Rusiya prezidenti öz düşmənçilik fəaliyyətini dayandırarsa, bu görüş baş tuta bilər. Fransa və Almaniya Avropa Birliyi-Rusiya sammitinin keçirilməsinə ümid bəsləyirlər və onlar bu siyasi blokla Moskva arasındakı gərginliyi azaltmaq niyyətindədirlər.

Amma 23 iyunda Krım yarımadasında baş verən hadisə sammitlərin "yamsılanması" ideyasının nəyə görə qüsurlu olmasını əyani şəkildə nümayiş etdirir. Putinlə görüş pis təşəbbüsdür, çünki Putin bu sammitlərdən özü üçün yaxşı PR faydası götürür, davranışlarını isə dəyişmir. Baydenin Putinlə görüşünün həqiqətən də məntiqi əsası vardı, lakin Britaniya və Avropanın eyni təşəbbüsü yalnız Putinin öz ölkəsi daxilindəki nüfuzunu möhkəmləndirəcək.

Krım sahillərində əslində nələrin baş verdiyi onu kimin necə nəql etməsindən də asılıdır. Belə ki, həmin vaxt Britaniya esminesində olan "BBC"-nin müxbiri Conatan Bil(Jonathan Beal) deyir ki, gəminin üstündə Rusiyanın ən azından 20 təyyarəsi uçurdu. Böyük Britaniyanın Müdafiə Nazirliyi isə bildirir ki, bu epizod Rusiya tərəfindən sadəcə, gövdə göstərisiydi və real heç bir təhlükə olmayıb. Britaniya Müdafiə Nazirliyinin nümayəndəsi deyib: ""HMS Defender"ə heç bir atəş açılmayıb və gəminin hərəkət kursu istiqamətinə bomba atılması barəsindəki bəyanatları qəbul etmirik".

Qeyd etmək lazımdır ki, Krım ətrafındakı sular Ukraynaya məxsus olan ərazi sularıdır. Amma Putin Britaniyanın bu baxışına məhəl qoymur.Putin öz ərazi işğallarının nəticələri üzərində qətiyyətlə və möhkəm dayanmaq fikrindədir.

Bu hadisənin təfərrüatından asılı olmayaraq, Rusiya istədiyinə nail oldu. Rusiya öz hərbi gücünü nümayiş etdirdi və bütün dünyaya göstərdi ki, tamamilə cəzasız şəkildə Krım üzərində öz bayarağını qaldıra bilər.

Böyük Britaniyanın hərbi gəmisinin Krım yarımadasına yaxınlaşmasında bəzi qabaqlayıcı komponentlər yer alır. Amma Putin anı və hədəfi mahircəsinə seçməyi bacarır. O, zəbt etdiyi ərazilərdən çəkilməyə hazırlaşmır. Məhz elə buna görə də Conson və Putin arasında sammit keçirilməsinin mümkünlüyü barədə müzakirə aparılması mənasızdır. Britaniya yeni siyasi xəttin hazırlanmasında mühüm rol oynamalıdır. Rusiyaya veriləcək istənilən siqnal ardıcıl və dəqiq olmaqlıdır.

Çox təəssüf ki, Rusiyanın təcavüzkar davranışlarına qarşı Böyük Britaniyanın göstərdiyi reaksiya kifayət qədər cəsarətsizdir. Əgər müttəfiqlər görsə ki, Boris Conson Putinə münasibətdə hədsiz yumşaq mövqe tutur,onda o, sürətlə nüfuzdan düşəcək. Ancaq bütün bunlar Baydenin sammit keçirmək olmaz. Çünki Rusiya hakimiyyəti öz əsas müxalifət liderini həbsə göndərdiyi, insan haqlarını pozan Belarusu dəstəklədiyi, Ukraynaya qarşı təcavüzkar addımlar atdığı və Qərbə qarşı kiberhücumlar təşkil etdiyi bir vaxtda sammit keçirmək mənasızdır. Belə bir şərtlər daxilində sammit təşkil olunması Rusiyaya verilmiş səhv siqnal olar. Xoşbəxtlikdən Almaniya və Fransanın Avropa Birliyi ilə Rusiya arasında sammit keçirlməsi təklifi Avropa Birliyinin digər üzvləri tərəfindən əngəllənib.

Putinin hərəkət tərzi artıq formalaşıb. O, Rusiyanın qonşu ölkələr üzərində nəzarətini gücləndirməyə, müxalifəti əzməyə, diqqətləri korrupsiyadan və ölkə daxilindəki problemlərdən yayındırmağa çalışır.

Rusiyanın istənilən müdaxiləsinə qarşı Qərb dövlətlərinin həmrəylik nümayiş etdirməsi, aydın xətli və enerjili əks reaksiya verməsi Putinin cəzasız qalmış hərəkətlərinə yaxşı cavab olardı."

Vaqif Nəsibov

Osipenko: Rusiyanın dağılma ssenarisi: 10 il sonra...

Rusiya dövlət kimi 10 il sonra dağılacaq.

Bu iddia ilə ukraynalı hərbi ekspert Ruslan Osipenko çıxış edib.

O, buna Rusiyaya qarşı tətbiq edilən sanksiyaların şərait yaradacağını bildirib: ***"Mən onunla razıyam ki, Rusiyaya qarşı sanksiyalar ona uzunmüddətli perspektivdə zərər vuracaq. Əgər dayanıqlı inkişaf reytinqinə baxsaq, görərik ki, Ukrayna 7 il ərzində Rusiyanı qabaqlayıb. Bu o deməkdir ki, Rusiya iqtisadiyyatının inkişafı dayanıb, Ukrayna iqtisadiyyatı və ÜDM-si isə artmağa davam edir. Biz Rusiya qədər potensiala sahib deyilik, amma çox bənddə artıq onları qabaqlamışıq".***

Osipenko Rusiyanın Krım məsələsində faktiki olaraq tələyə düşdüyünü söyləyib: ***"O, Krımı işğal edib, indi isə gedə bilmir. Bu sanksiyalar zamanla Rusiyanı dağıdacaq. Məncə, 10 il ərzində gerçəkləşəcək. SSRİ 1979-cu ildən 1990-cı ilə qədərki dövrdə yıxıldı. İki səhv buraxıldı – Əfqanıstan və yenidənqurma".***

NATO Kremlə meydan oxudu

NATO-nun Qara dənizdə "Sea Breeze" təliminə start verməsi təsadüfi deyil. Son dövrlər Rusiya ilə ABŞ arasındakı münasibətlərin gərginləşməsi və Bayden-Putin görüşünün nəticəsiz qalması Qərbin aktivləşməsinə gətirib çıxarıb.

Bu sözləri Paralel.az-a politoloq Turab Rzayev NATO-nun Qara dənizdə "Sea Breeze" (Dəniz mehi) təliminə start verməsi haqda danışarkən deyib.

Politoloqun sözlərinə görə, "Sea Breeze" təlimləri hər il keçirilsə də, bu il təlimdə ümumilikdə 30 dövlətin 5000 hərbçisi, 32 gəmisi, 40 təyyarə və helikopteri iştirak edir:

"Bu təlimləri mahiyyət etibarilə bu günə qədər keçirilən ən irimiqyaslı təlim hesab etmək olar. Digər tərəfdən, bu təlimi bir neçə ay öncə Rusiya ordusunun Ukrayna sərhədində keçirdiyi genişmiqyaslı hərbi təlimlərə cavab kimi də qiymətləndirmək olar.

NATO-nun Rusiyaya qarşı "Dənizdən-dənizə: Baltik-Qara-Xəzər dənizi" strategiyası var. Təsadüfi deyil ki, alyans bu istiqamətdə bu gün də addımlar atmaqdadır. Misal üçün Bolqarıstan və Rumıniya, həmçinin Türkiyənin vaxtından əvvəl NATO-ya üzv qəbul edilməsinin bir digər səbəbi də Qara dənizə çıxış əldə etmək idi. Bu gün isə Baltikyanı ölkələrlə bu proses baş verir".

"Şuşa Bəyannaməsi Rusiyanın Qafqaz planlarını alt-üst edib. Prezident İlham Əliyevə qarşı təxribata əl atıla bilər"

Nikol Paşinyan Ermənistanda seçkini udaraq, ölkəyə nəzarəti var gücü ilə bərpa etməyə çalışır. İrəvanda uduzan "Qarabağ klanı" Xankəndindəki separatçı qurumun rəhbərliyinə qarşı açıq hücuma keçib.

Eyni vaxtda İrana aid yük avtomobilləri yenidən Qarabağın hələlik nəzarətimizdə olmayan ərazilərində görünməyə başlayıb. Beləcə, regionda müharibədən sonra nisbi sakitlik yaransa da, alt qatlarda müəyyən proseslərin getdiyi müşahidə olunur.

"AzPolitika.info" bu mövzu ətrafında politoloq Cümşüd Nuriyevlə söhbətləşib:

- İyunun 21-də Xankəndində əvvəlcə separatçıların başçısı Araik Arutunyana qarşı mitinq təşkil edildi, istefa tələbi səsləndirildi, daha sonra Arutunyan öz tərəfdarlarını küçələrə çıxardı. Dünən isə özünü "təhlükəsizlik şurasının katibi" kimi təqdim edən cinayətkar Vitali Balasanyan bir qrup erməni ilə görüşərək, özünü Xankəndində əsas söz sahibi kimi göstərməyə çalışdı. Sizcə, Ermənistanda baş verən proseslər fonunda Xankəndində yaşananlar Rusiyanın buradakı "beşinci kolon"unun fəaliyyətinin, yoxsa ermənilərin bir-birilə hakimiyyət davasının nəticəsidir?

- Bu, ermənilərin daxili münaqişəsi deyil, Rusiyanın yaratdığı münaqişədir. Rusiya Koçaryan-Paşinyan döyüşünü uduzdu. Erməni mediası yazırdı ki, Rusiyadan Ermənistana 4 minə yaxın adam gəlib və onların məqsədi aranı qarışdırmaq olub. Onların içərisində xüsusi təyinatlıların da olduğu iddia edilirdi. Bəzi siyasətçilər təsadüfən demirdi ki, dövlət çevrilişi ola bilər. Bunu etmək istəyirdilər, amma ABŞ imkan vermədi. ABŞ səfirliyi oradakı Rusiya təxribatlarının qarşısını aldı. Odur ki, İrəvanda istədiklərinə nail ola bilməyən ruslar indi də Xankəndində vəziyyəti qarışdırmaq istəyirlər.

Araik seçki günü İrəvana getdi və səhəri günü də Paşinyanı təbrik etdi. Bir növ rusları ABŞ-a satdı. Rusiya elan etmişdi ki, müharibədən sonra 55 min ermənini Xankəndi və digər məntəqələrə qaytarıb. Araik də çıxıb "35 min insanı saxlamalıyam" kimi ritorik ifadə işlədərək, rusların rəqəmini yalanladı. Bütün bunlar rusların qıcığına səbəb oldu.

İkincisi, hazırda İran ağır vəziyyətdədir, amma buna baxmayaraq, Qarabağa yanacaq, benzin, sürtkü materialları göndərir. Hazırda Rusiya-İran dueti Xankəndini qarışdırmaq istəyir. Xankəndində yaşananlar bununla bağlıdır. İrəvandakı məğlubiyyətin əvəzini Xankəndində çıxmaq, daha konkret desək, Vitali Balasanyanı "hakimiyyətə" gətirmək istəyirlər. O da Xocalı soyqırımında iştirak edib, ortada olan fiqurlar içərisində əli ən çox qana batan şəxsdir. Onlar düşünürlər ki, Balasanyanı hakimiyyətə gətirdikdən sonra Qarabağ ərazisində təxribatlar olacaq. Məqsəd Şuşa Bəyannaməsindən narahat olan rusların möhkəmlənməsini təmin etməkdir.

İş o yerə çatıb ki, Türkiyə ordusunun bura gəlməsini az qala NATO-nun gəlişi kimi təqdim edirlər. Bunların fonunda həm də çalışırlar ki, Azərbaycanda təxribat törətsinlər. Fikir vermisinizsə, Moskvanın Bakıdakı "maraqlarını" təmin edənlər fəallaşıb. Hətta Rusiyaya bağlı olanların əli ilə ölkəni qarışdırmaq istəyirlər. Düzdür, bunlardan biri zərərsizləşdirilib. Nəcməddin Sadıkov oyundankənar vəziyyətdədir, əlində böyük imkanlar yoxdur. Amma Ramiz Mehdiyev və daha bir nəfər hələ də müəyyən imkanlara malikdir. Bütün bunların arxasında Rusiya kəşfiyyat orqanları və hərbi elitası durur.

- Demək istəyirsiniz ki, Rusiya həm Ermənistandakı, həm də Azərbaycandakı "beşinci kolon"unu hərəkətə gətirir?

- Birmənalı şəkildə belədir. Açıq deyək ki, istər özəl, istərsə də dövlət telekanalları bunlarla zəif mübarizə aparır. Yenə də qorxa-qorxa təbliğat aparmaq, ehtiyatla danışmaq və s. Məsələn, hazırda ölkədə rus rublu ilə olan qrantlar çoxalmağa başlayır, bir növ bu sahədə rubl dolları və avronu üstələyir. Mən hesab edirəm ki, millət dövlətini müdafiə etməlidir. Bu, təkcə Dövlət Təhlükəsizliyi Xidmətinin və Daxili İşlər Nazirliyinin işi deyil. Azərbaycan xalqı dövlətin yanında olmalıdır.

Bakıda olan "beşinci kolon" nümayəndələrinin əksəriyyətində erməni qanı var. Əsas fəallıq göstərənlər də onlardır.

Hesab edirəm ki, Şuşa Bəyannaməsi Rusiyanın Qafqaz planlarını alt-üst edib. Prezident İlham Əliyevə qarşı təxribata əl atıla bilər. İlham Əliyev bunu demir, ancaq nəzərə alın ki, o, dövlət başçısıdır. Prezident daim ehtiyatlı və diplomatik danışmalıdır. Əvəzində, Azərbaycan ziyalıları öz sözlərini deməlidirlər. Akademiya söz deməyəcək, çünki Ramiz Mehdiyev oranı kor qoydu. 5-6 nəfər danışan var idi, onları da məhv edib qoydular bir tərəfə. Oranın adını Milli Elmlər Akademiyası deyil, Mehdiyevin ailə akademiyası qoymaq lazımdır.

- Ermənistandakı son seçkilər MDB məkanında Rusiyaya bağlı "beşinci kolon"ların qürub çağında olduğunu göstərmirmi?

- Ermənistanın cəmi 2 milyon əhalisi olmasına baxmayaraq, ABŞ-ın dünyada dördüncü ən böyük səfirliyi İrəvandadır. Təsəvvür edin ki, Çin, Hindistan və Rusiyadan sonra ən böyük səfirliyi Ermənistandadır. Səfirliyin 2 min işçisi var. Bəli, onlar peşəkarcasına Rusiyaya bağlı "xətlər"i zərərsizləşdirdilər. Bizdə isə "beşinci kolon"u zərərsizləşdirmək haqqında düşünmürlər. Bu qədər sözlər deyilir, amma ölçü götürülmür.

- Nikol Paşinyan seçkidə qalib gələndən sonra həm İrəvanda, həm də Bakıda mütəxəssislər sülh müqaviləsinin imzalanması, sərhəd problemlərinin həll edilməsi ehtimalını yüksək qiymətləndirirlər. Sizcə, "beşinci kolon"un hərəkətə gətirilməsində məqsəd bütün bunların reallaşmasına mane olmaqdırmı?

- Bu qüvvələr Ermənistanda uduzublar. Amma Azərbaycanda vəziyyət fərqlidir. Siz araşdırma aparsanız görəcəksiniz ki, indi Rusiyanı müdafiə edənlərin ata-babaları Azərbaycanın evini yıxanlar olub. Yəni bunlar nəsilliklə Rusiyanın agentura şəbəkəsində oturan adamlardır. Onların çoxu vaxtı ilə vəzifədə olanların övladları və ya nəvələridir. Bu gün də onların əllərində imkanlar böyükdür. Akademiya görün nə günə qalıb. Orada azı 2 min elmlər doktoru, 12 min elmlər namizədi var. Belə şəraitdə ölkənin alimləri Ramiz Mehdiyevin öhdəsindən gələ bilmirlərsə, deməli ölkədə alim yoxdur. Şuşa Bəyannaməsindən sonra Azərbaycan ciddi problemlə üzləşib. Ancaq buna bizim beş-onunu çıxmaq şərti ilə ziyalılarımız və deputatlarımız susub. Niyə? Hökumət üzvlərindən də üç-dördündən savayı başqalarının səsi çıxmır. Çoxu da hakimiyyətlə xalq arasında narazılığı günü-gündən artırır. Bu şəkildə davam etsə, ciddi problemlə üzləşəcəyik. Biz Ermənistandakı kimi "beşinci kolon"u zərərsizləşdirməliyik. Əks halda, onlar ölkəyə

mizə fəaliyyət göstərir?

- Onla heç vaxt bizə qarşı səmimi olmayıb, bu gün də səmimi deyillər. İran din adı altında burada çox işlər görüb. Təəssüf ki, bizim bir çox insanımız hətta geyimlərini belə dəyişib, İran mollaları kimi geyinirlər, İran ləhcəsi ilə danışırlar. Fikrimcə, İran da arxalanır ki, onun buradakı "beşinci kolon"u güclüdür. Ümumən farsla rus xalauşağıdır və daim bizə qarşıdır...

Dediyiniz maşınlara gəlincə, sözsüz ki, peyklərdən bunlar görünür və qeydə alınır. Onlar əraziyə İran nömrələri ilə girir və orada Ermənistan nömrələri taxırlar. Onları dayandırmaq üçün Azərbaycanın imkanları var. Bizim iki peykimiz, Rabitə və İnformasiya Texnologiyaları Nazirliyimiz var. Bu qurum nə üçündür? Bu faktları ortaya çıxarmaqdan niyə ehtiyat etdiklərini anlamıram. Bu qədər siyasi partiya var. Beş-altısını çıxmaqla hamısı sanki gözləmə mövqeyindədir.

- Necə düşünürsünüz, nəhayətdə Azərbaycan bütün neqativ ssenariləri pozaraq, İrəvanı sülh sazişi imzalamağa məcbur edə biləcəkmi?

- Məncə, problem olmayacaq. İş ondadır ki, bunda ABŞ da, Türkiyə də, Avropa da maraqlıdır. Məqsəd Rusiyanı Qafqazdan çıxarmaqdır. Bunun üçün Ermənistan Azərbaycanın ərazi bütövlüyünü tanımalı, sülh müqaviləsi imzalamalıdır. Ermənistanda Paşinyan parlament çoxluğunu təmin edib. Azərbaycan tərəfindən də problem olmayacaq. Bu sülh sazişi ratifikasiya edildikdən sonra hər şey beynəlxalq hüquq müstəvisinə keçəcək. Bu da o deməkdir ki, növbəti mərhələdə Ermənistan Rusiya hərbi bazasını ərazisindən çıxaracaq. Bu halda Rusiyanın sülhməramlılarına da "yox" deyiləcək. Əslində, Rusiya bunu çox gözəl anlayır.

Hesab edirəm ki, bu prosesdə Türkiyə də əhəmiyyətli rola malikdir. Məncə, Türkiyə olmasaydı, burada çoxdan aranı qarışdırmağa nail olumuşdular, hətta çevrilişə belə cəhd edərdilər. İndi də belə niyyətləri ola bilər, ancaq alınmaz. Çünki Türkiyə buradadır və Azərbaycanı çox ciddi şəkildə müdafiə edir.

Rasim Əliyev

"Rusiyaya bağlı olanlar fəallaşıb, ölkəni qarışdırmaq istəyirlər"

"MEHDİYEV ÖLKƏ RƏHBƏRLİYİ ƏLEYHİNƏ TƏBLİĞATLA MƏŞĞULDUR..."

Cümşüd Nuriyev: "Ramiz Mehdiyev və daha bir nəfər hələ də müəyyən imkanlara malikdir"

"Türkiyə olmasaydı, çevrilişə belə cəhd edərdilər..."

Bağırovu qəzəbləndirən Xan Əmi güllələnməkdən necə qurtuldu?

10 MARAQLI FAKT

Azmarka.az ”Həmişəyaşar” layihəsində bu dəfə Azərbaycanın böyük xanəndəsi, əfsanəvi sənətkar, ”Xan Əmi” kimi də məşhurlaşmış Xan Şuşinski (20 avqust 1901, Şuşa, Yelizavetpol quberniyası – 18 mart 1979, Bakı) barədə bir-birindən maraqlı faktları təqdim edir.

1. Xan Şuşinskinin oğlu Aslan Cavanşirovun yazdığına görə, böyük xanəndəmiz gənc yaşlarından papiros çəksə də sonradan Cabbar Qaryağdıoğlunun məsləhəti ilə qəlyan çəkməyə başlamış və ömrünün sonlarına qədər bu məşğuliyyətindən əl çəkməmişdir: *”Sağlığında böyük qəlyan və təsbeh kolleksiyası olsa da əliaçıq insan olduğundan özünə ən əziz hesab etdiyi əşyasını belə kimdənsə əsirgəməmişdir. Cavanlığında at sürməyi, ov-ovlamağı xoşlar, iti görmə qabiliyyəti və cəld hərəkəti hesabına sərrast güllə atmağı varmış. Onun gözəl nərd oynamaq qabilyyəti olmuşdur. Nərd oynamağı sevər və çox nadir hallarda uduzarmış”.*

2. Xan Şuşinski ilk dəfə qadın ifaçı ilə birgə duet ifasının təşəbbüskarı, duet (deyişmə) mahnıların ilk müəllifi və ilk ifaçısı olmuşdur.

3. Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra xalq yaradıcılığından, milli muğamlarımızdan bəhrələnən bir nəğməkar olduğu üçün Xan Şuşinski daim təqiblərə məruz qalırdı. Belə ki, özünün bəstələdiyi və sevə-sevə oxuduğu “Şuşanın dağları” mahnısında ”başı dumanlı” kəlməsində nəyə eyham etdiyi, ”mavi duman”, ”qırmızı qofta”, ”yaşıl tuman” ifadələrindəki rənglərlə Azərbaycan Cümhuriyyətinin üçrəngli bayrağınamı işarə elədiyi barədə sorğu-sual olunur, dəfələrlə inzibati orqanlara çağırılaraq izahat vermək məcburiyyətində qalır.

Nəticədə Xan Şuşinski xüsusi senzura komissiyasını həmin mahnı mətninin ”Şuşanın dağları başı dumanlı” misrasını ”Şuşanın dağları deyil dumanlı” dəyişdirməyə razı salır.

4. Xan Əminin başını ağrıdan daha bir mahnı olub. Yenə oğlu Aslan Cavanşirovun bildirdiyinə görə, 1920-ci illərin əvvəllərində çox məşhur olan İzmir marşı *(“Yaşa, yaşa, min yaşa, Mustafa Kamal Paşa”)* bir çox xanəndələr kimi Xanın da repertuarında yer aldığından Xan Şuşinski tərəfindən tez-tez oxunarmış. Lakin sonradan mahnı çox sifarişli olduğundan sovet hökumətinin yerlərdəki məmurları tərəfindən həmin mahnının ifasına ciddi qadağa qoyulmuş və digər ifaçılar kimi Xan Şuşinski də bu mahnıya görə dəfələrlə xüsusi xidmət orqanlarının tənqidinə məruz qalmışdı.

5. Öz yaradıcılığında Hüseyn Cavidin qəzəllərinə geniş yer ayırdığına görə 1937-ci ildə hökumət nümayəndələrinin qəzəbinə tuş gəlir. Kütləvi yerlərdə, el şənliklərində və rəsmi tədbirlərdə oxumasına qadağa qoyulur. 1938-ci ildə Moskva şəhərində keçirilən Azərbaycan Ədəbiyyatı və İncəsənəti ongünlüyünün iştirakçıları siyahısından kənarlaşdırılır. Azərbaycan SSR-nin o vaxtkı rəhbəri Mir Cəfər Bağırov Xan Şuşinskinin tədbirlərə qatılmamasının səbəbini soruşduqda, ona görkəmli xanəndənin bundan imtina etdiyi söylənilir. Bağırov qəzəblənir və Xan Əminin cəzalandırılmasına göstəriş verir. Lakin məsələ araşdırıldıqda əsl həqiqət ortaya çıxır və o cəzadan, bəlkə də dövrün bir çox görkəmli ədəbiyyat və mədəniyyətləri kimi güllələnmədən qurtulur. Bundan başqa, Bağırov tapşırır ki, həmin vaxt Ağdamda yaşayan Xan Əmi 24 saat ərzində Bakı şəhərinə köçürülsün və filarmoniyada işlə təmin olunsun.

6. 1943-cü ildə Moskvadan folklor sənətini təhlil edən bir qrup musiqişünas-alim heyəti Bakıya gəlir. Məşhur müğənni Bülbül həmin vaxt Xan Şuşinskini dəvət edib, onlar üçün “Mahur hindi” muğamını oxumağı xahiş edir.

Qonaqlar Xanı ardıcıl olaraq bir neçə dəfə oxutdurub, dinlədikdən sonra bu səsin gücünə heyran qaldıqlarını gizlətmədən, icazə istəyib, Xanın ağzına və boğazına diqqətlə baxırlar. Xan Bülbüldən soruşur ki, bunlar nə istəyir. Bülbül deyir: *”Xan bunlar elə bilirlər, sən boğazında nə isə səs gücləndirici bir vasitə gizlətmisən, inana bilmirlər ki, insanda bu qədər geniş diapazonlu, güclü səs ola bilər”.*

7. 1934-cü ilin payızında Bakıda görkəmli rus şairi Lermontovun 120 illik yubileyi qeyd olunurmuş. Xan Şuşinski də həmin yubileydə çıxış etmək üçün dəvət edilir. Tədbirə Azərbaycanın o vaxtkı dövlət və hökumət rəhbərləri ilə yanaşı Rusiyadan dəvət olunmuş məşhur ədəbiyyat xadimləri də qatılmışdılar.

Xan çıxış üçün adəti üzrə öz repertuarından bir şey ifa etməyə hazırlaşarkən, tədbirin təşkilatçılarından göstəriş gəlir ki, xanəndə muğam üstə mütləq Lermontovun şeirlərindən oxumalıdır ki, qonaqlar görsün ki, bizim muğam ifaçılarımız da gökəmli rus şairinin seirinin vurğunudurlar.

Çətin vəziyyətlərdə çıxış yolu tapmağa vərdiş etmiş təcrübəli xanəndə Lermontovun şeirlərindən birini cəld kağız parçasına köçürüb qavalın içərisinə pərçimləyir və muğam üstündə birtəhər ifa edib başa çatdırır.

Tədbirdən sonra Mir Cəfər Bağırov musiqiçilərə yaxınlaşıb, razılığını bildirərkən Xan Əmiyə zarafatla deyir: *”Həmişəki kimi yaxşı oxudun, amma bu dəfə qavalın içinə yaman boylanırdın”...*

8. İndi isə araşdırıcı Sevda İsmayıllının həm də duzlu-məzəli sözləriylə diqqət çəkən hazırcavab Xan Əmi ilə bağlı topladığı əhvalatlardan bir neçəsini təqdim edirik.

Bu əhvalatı Xan Əmiyə həsr etdiyi kitabında musiqişünas Firudin Şuşinski qələmə alıb. Olay 30-cu illərin Şuşasında yaşanıb. Əmisi qızı Fatmanın toyunda balaca Firudin ilk dəfə Xan Şuşinskini görüb...

...O vaxtlar Şuşada ”Qəşəngi” havası çox dəbdəymiş. Toylarda, özəlliklə də Xanın qatıldığı toylarda qız-gəlinlər bu havaya oynamaqdan doymazlarmış. Hə, Firudin bəy xatırlayır ki: *”əmim qızının Köçərli məhəlləsində keçirilən toy məclisində qonşumuz şirniçi Yunusun qızı Qəməri oynatdılar...”.*

Qəmər ”Qəşəngi” oynamaqda birinci olduğu kimi, gözəllikdə də Qarabağda birinci sayılarmış.

Firudin bəy xatırlayır ki, elə 35 yaşlı Xan da son dərəcə gözəl kişi idi...

”Qəşəngi” havasına oynayanda, Qəmərin gözəlliyindən, onun şirin-şirin süzməsindən ruhlanan Xan bədahətən Qarabağ gözəlinə bu sözləri qoşub ”Qəşəngi” havasının üstündə oxuyur:

Saçın ucun hörməzlər,
Səni mənə verməzlər.
Əyil üzündən öpüm,
Qaranlıqdır görməzlər.
Ay Qəmərim, Qəmərim,
Gözəl Qəmərim, Qəmərim...

Xanın gözəl səsindən və şirin sözlərindən coşub-daşan Qəmər özünün bütün məharətini göstərməyə çalışır. Mağardakılar bu möhtəşəm mənzərəyə heyranlıqla baxırlar.

Qarabağın ən gözəl qızı ən gözəl səsli, üstəlik, ən yaraşıqlı kişisi ilə sanki, yarışa giribmiş...

Eyvah! Gözəllər gözəli Qəmər bu yarışmadan məğlub çıxır.

Qəşş edib bayılır...

Bu hadisə balaca Firudinin yaddaşına yazılır, 50 il sonra yazdığı ”Xan Şuşinski” kitabında da əbədiləşir.

Aradan uzun-uzun illər ötür...

Bir dəfə Bakıda olan Qəmər artıq adı dillərdə gəzən həmin xanəndəyə – Xan Əmiyə telefon açır və hal-əhvaldan sonra soruşur:

– Yadındadırmı, cavanlıqda səni görüb, oxumağını eşidib necə qəşş edib yıxılmışdım?

Artıq ixtiyar çağlarını yaşayan ustad sənətkar bir az duruxub cavab verir:

– Ay canım... onda sən qəşş edib yıxılmışdın, indi də mən gözəl qızları görəndə qəşş edib yıxılıram...

9. Xan Əmi Qarabağ xanlığının banisi Pənahəli Xanın nəvəsi Məhəmməd bəy Cavanşirin nəticəsi Aslan ağa Cavanşirin ailəsində ilk övlad olub. Anası Bəyimxanım da Cavanşirlər sülaləsinin bir qolu olan Behbud bəyin nəslindənmiş.

Aslan ağanın Şuşada evi, Xan Bağı yaxınlığındakı Ballıca kəndində böyük mülkü, qoyun sürüləri, at ilxısı, geniş otlaqları, un dəyirmanı və meyvə bağları varmış. Açıqfikirli ailə evlərində tez-tez musiqi məclisləri keçirərmiş. Aslan ağa oğlunun gözəl səsi olduğunu görüb onu məşhur xanəndə İslam Abdullayevə şagirdliyə verir. Aslan ağa özü də tarda çalıb, zümzümə etməyi xoşlarmış. Gənc İsfəndiyar hətta

Cümhuriyyət ordusuna da yazılıb. Ordunun əsgəri olub. 1919-cu ildə Gəncədə hərbi təlim keçib. Sonradan onu tanıyan hərbçi məmur, öz sənəti ilə yenicə yaranmış müstəqil respublikaya daha çox xeyir verə biləcəyini söyləyərək İsfəndiyarı hərbi xidmətdən azad edir...

Və...19 yaşlı gəncin həyatında birdən-birə hər şey dəyişir. Bolşeviklər yenicə yaradılmış cümhuriyyəti devirirlər. Ailə pərən-pərən düşür. Dayıları-əmiləri İrana, Türkiyəyə mühacirətə gedir. Bütün var-dövlətini itirən Aslan ağa Ağdama köçməyə məcbur qalır. Xanı səsi qoruyur. O qədər güclü səsi olur ki, xanlara-bəylərə divan tutulan vaxt o öz Xan adını saxlaya bilir. Amma Cavanşir soyadından əl çəkməyə məcbur olur...

Hələ təzə oxuduğu vaxtlarda İsfəndiyarın səsi hamını heyran qoyurmuş. Bir dəfə Ağdamın Novruzlu kəndində keçirilən bir toy mərasiminə ustadı İslam Abdullayevlə İsfəndiyar da qatılıbmış. Birdən İslam Abdullayevin diqqətini toy evindəki qrammofon çəkir. Ev sahibindən soruşur ki, hansı vallarınız var? Cavab gəlir ki, Cabbarın ”Mahur”u, Seyidin ”Çahargah”ı, Malıbəyli Həmidin ”Rast”ı və bir də iranlı Xanın - Əbülhəsən Xan İqbal Azər Soltanın ”Kürdü-Şahnaz”ı... Əbülhəsən Xanı seçib dinləyirlər. Dinləmə sürəsində İsfəndiyarın həyəcanı İslam Abdullayevin gözündən qaçmır. Val çalınıb qurtarandan sonra soruşur ki, İsfəndiyar, sən də belə oxuya bilərsənmi?

İsfəndiyar qayıdır ki, vala bir də qulaq assam, oxuyaram!

Hamını maraq bürüyür. Valı bir də səsləndirirlər və İsfəndiyar eynən Əbülhəsən xan kimi ”Kürdü-Şahnazı” oxuyur...

Məclisdəkilər heyrətlənirlər:

– Əşi, bu əsl Xandır ki?!

O vaxtdan gənc İsfəndiyarın adı dönüb olur Xan Şuşinski...

Xatırlatma: Əbülhəsən Xan İqbal Azər Soltan İran şahının saray xanəndəsi olub. Əllərini döşünə qoyub ayaqüstü oxuyarmış. Çox güclü səsi varmış. Deyilənə görə, İran hökmdarı Əhməd Şah səsinə o qədər vurulub ki, ona böyük mülk, torpaq sahələri bəxş edir, Xan titulu verib. Təbriz valisi təyin edib. Əbülhəsən Xan İqbal Azər Soltan 1914-cü ildə Avropa qastroluna çıxarkən yolüstü Tiflisdə konsert verib. Hətta ”Molla Nəsrəddin” jurnalının redaksiyasında olub, Mirzə Cəlillə görüşüb.

10. Sovetlər dönəmində Xan Əmi bir gün Filarmoniyaya gəlir, görür hamını qəzetlərə abunə yazırlar. ”Pravda”, ”Komsomolskaya pravda”, ”Kommunist”, ”Bakinski raboçiy”, ”Vışka”...

Seçim qarşısında çaşıb qalan Xan Əmidən soruşurlar:

– Səni hansı qəzetə yazaq, Xan Əmi?

Xan Əmi əyilib abunə yazan adama deyir:

– Qardaş, məni də ”İqbal”a yaz!!!

Xatırlatma: ”İqbal” qəzeti (”Yeni iqbal”) - gündəlik ictimai, iqtisadi və siyasi qəzet olub. 1915-1917-ci illərdə Bakıda çıxıb. Qəzetin redaktoru və sahibi Üzeyir bəy Hacıbəyli idi...

Hazırladı: Elçin AHMURAD

Paralel

Son səhifə

www.paralel.az
e.mail adresi:
paralel_qazeta@mail.ru

№ 223-224 (3515-3516) 1 iyul 2021-ci il * Gündəlik ictimai-siyasi qəzet * Qiyməti 20 qəpik

Uşaqlarda piylənmə

Uşaqlarda piylənmə kalorili qidalarla və ayaqüstü qidalanmadan, az hərəkətlilikdən, şirin qazlı içkilərdən hədsiz istifadəsi zamanı baş verə bilir.

Uşaqlarda piylənmə uşaq və yeniyetmələrdə baş verən ciddi xəstəliklərdən hesab edilir. Mütəxəssislər uşaqlarda piylənmənin olmasının təhlükəli hesab edirlər. Onların fikrincə yeniyetmə yaşına qədər piylənmə uşaqların normal inkişafı üçün təhlükli sayılır. Piylənmə uşaqların inkişafını ləngidir.

Mütəxəssislər piylənmə ilə böyüyən uşaqlarda müxtəlif xəstəliklərin, o cümlədən endokrin sistem xəstəliklərinin əmələ gəlmə riskinin böyük olduğunu söyləyirlər. Belə ki, piylənməsi olan uşaqlarda şəkərli diabet, arterial təzyiq, qanda xolesterolun miqdarının artması baş verə bilir. Piylənmə uşaqların psixologiyasına da mənfi təsir edir. Piylənmədən əziyyət çəkən uşaqlar özünə qapalı olurlar və tez depressiyaya düşürlər.

Uşaqlarda piylənmə ilə mübarizə aparmaq üçün bütün ailə üzvlərinin onunla birgə əmək sərf etməsi lazımdır. Mütəxəssislər beə uşaqları olan ailəyə hamılıqla birgə sağlam həyat tərzi yaşamağa başlamağı məsləhət görürlər. Onlar bütün ailənin bir süfrədə və piylənməyə səbəb olmayan qidalarla qidalanmağı tövsiyə edirlər. Mütəxəsisslər bütün ailə üzvlərinin birlikdə piyada gəzintiyə getməyini, birlikdə fiziki əməklə məşğul olmağının uşağa çox faydalı olacağını söyləyirlər. Ailə üzvlərinin uşaqla birlikdə etdikləri, uşaq üçün bir stimul olacaq və o hətta arıqlamağa könüllü olaraq razılıq verəcək.

Artıq piylənmədən əziyyət çəkən uşağı olan hər bir valideyin öz övladının gələcək sağlamlığı üçün onun çəkisinin normaya düşməsi üçün əlindən gələni etməlidir.

Kolbasa məmulatlarının tərkibi, saxlanılması və istehlak qaydaları

Kolbasa məmulatlarının istehsalının əsasını onun tərkib hissəsinin düzgün seçimi təşkil edir. Kolbasa istehsalında əsas ət məhsulları mal, dana və donuz əti olsa da, qoyun, quş və digər ət növlərindən, həmçinin müx-təlif qida qatqıları, duz, şəkər və ədviyyatlardan da istifadə olunur.

Bu barədə Qida Təhlükəsizliyi İnstitutunun Qida təhlükəsizliyi şöbəsinin mütəxəssisi Aynur Həsənovanın hazırladığı maarifləndirici materialda bəhs edilir.

Kolbasanın çəhrayı-qırmızı rəngdə olması istehsal prosesində xam məhsulların yekun məhsula qədər keçdiyi mərhələlərdə düzgün ardıcıllığa riayət edilməsindən xəbər verir. Qəhvəyi və ya bozumtul rəngin formalaşması isə məhsulun korlandığını və ya tezliklə korlanacağını göstərir. Hisə verilmiş kolbasaların rəngi isə ətin növü və istifadə olunan texnoloji prosesdən asılıdır. Məhsulda göy və ya yaşıl ləkələr nişastanın miqdarının çox olması ilə bağlıdır. Kolbasanın keyfiyyət göstəricilərindən biri də əsas tərkib komponentlərindən olan yağların rəngidir. Bunu kəsilmiş kolbasa məhsulunda daha aydın görmək olar. Keyfiyyətli məhsulda yağ ağ, keyfiyyətsiz məhsulda isə sarı rəngdə olur.

Sosislərin istehsalında da texnoloji prosesin pozulması nəticəsində məhsulun keyfiyyətində bir sıra nöqsanlar baş verə bilər. Qeyd edək ki, keyfiyyətli sosis elastik olmalıdır. Məhsula yüngül təzyiq edildikdə qısa müddət ərzində öz əvvəlki formasına qayıtmalıdır. Əks halda bu, sosisin tərkibində zülal və qatqı maddələrinin miqdarının çox olmasından xəbər verir. Sosisin qabığı bütöv, hamar və quru olmalıdır. Qabıqda zədə, selik, ərp yolverilməzdir və farşa tam şəkildə yapışmalıdır. Qabıqda ərp yalnız hisə verilmiş kolbasada ola bilər. Bundan başqa, kolbasa, sosis və sardelkalardan təzə və xoşagələn qoxu gəlməlidir. Ədviyyatların ətri kəskin duyularsa, bu, xammalın keyfiyyəti ilə əlaqədar şübhə doğurur.

Kolbasa məmulatları ilkin inqrediyentlərlə dərin emal prosesini keçir ki, bu zaman yüksək temperatur və güclü effektə malik kimyəvi maddələrin təsirinə məruz qalır. Məsələn, konservant olaraq, istənilən kolbasada natrium nitritdən istifadə olunur. Həmin kimyəvi maddə qarışığa həm çəhrayı rəng vermək, həm də təhlükəli bakteriyalardan qorumaq məqsədilə tətbiq edilir. Həmçinin dadlandırıcı olaraq qlütamatdan (E-621) da istifadə edilir.

Kolbasa məmulatlarının gündəlik istehlakı insan sağlamlığı üçün zərərlidir. Bu tip məhsulların orqanizmə başlıca zərəri (xüsusilə uşaqlarda və yaşlılarda) əsasən tərkibindəki kanserogen maddələrlə əlaqədardır. Xüsusilə də mədə-bağırsaq xəstəliklərinin yaranmasına və ya kəskinləşməsinə səbəb olur. Bundan başqa, kolbasa məmulatlarının tərkibindəki duz, bitki və heyvan mənşəli yağlar qanda triqliseridin səviyyəsini artırır ki, bu da xolesterin və ürək-damar sisteminin fəaliyyəti ilə əlaqədar problemlərə səbəb olur. Kolbasa və sosislərin tərkibindəki konservantlar (xüsusilə də hisə verildikdən sonra) və ədviyyatlar mədə divarını qıcıqlandırır.

Kolbasa məhsullarının qısa müddətdə istehlak edilməsi tövsiyə olunur. Lakin müasir qablaşdırma üsulları (məsələn, vakuum və ya qaz) məhsulun istehlak müddətini artırmaqla yanaşı, keyfiyyət və qidalılıq xüsusiyyətini qorumağa da imkan verir. Keyfiyyətli sosis, sardelka və südlü kolbasaların saxlanma müddəti 30 gün, hisə verilmiş kolbasaların saxlanma müddəti isə 3 aydır. Kolbasa və sosis məhsulları soyuducuda 0-12 dərəcə C temperaturda saxlanılmalıdır. Belə şəraitdə saxlanıldıqda məhsullar bir neçə ay təzə qalır. Kolbasa məmulatlarını polietilen torbalarda saxlamaq məhsulun keyfiyyətini aşağı salaraq, onun dadının korlanmasına səbəb ola bilər. Kolbasa məmulatları qapaqlı konteynerlərdə və ya qida məhsulları üçün nəzərdə tutulmuş kağızlara bükülərək saxlanıla bilər. Kolbasa və sosis məhsullarının etiketindən onların tərkibi və təhlükəsizliyi, istehsal tarixi və istehlak müddəti, həmçinin saxlanma şəraiti haqqında məlumat əldə etmək mümkündür.

Qeyd edək ki, Ümumdünya Səhiyyə Təşkilatı kolbasa və sosis məhsullarının insan sağlamlığına zərərini nəzərə alaraq istehlakının sutka ərzində 50 qrama qədər azaldılmasını tövsiyə edir. Bunun başlıca səbəbi kimi kolbasa məmulatlarının çoxmərhələli kimyəvi emalı göstərilir.

Gavalının qan təzyiqinə təsiri

Həkim-dietoloq gavalıların az bilinən faydalı keyfiyyətlərindən danışıb. Mixail Qinzburq meyvənin bağırsaqları bərpa etdiyini, hipertoniyaya səbəb olan prosesləri azaltmağa və qan təzyiqini aşağı salmağa qadir olduğunu söyləyib.

"Gavalıda iltihab əleyhinə təsir göstərən elementlər var. Gavalının istehlakı qan axınını yaxşılaşdırır. Meyvə, həmçinin bədəndəki artıq mayenin xaric olunmasına kömək edir və bu da təzyiqin azalmasına səbəb olur". Həkim-dietoloq eyni zamanda gavalının damar divarlarını gücləndirməyə qadir olduğunu əlavə edib. Bu meyvədə bədən üçün lazım olan C vitamini, kalium və mis var.

Qeyd etmək lazımdır ki, gavalını gündə 150 qramdan çox yeməmək tövsiyə olunur.

Təsisçi və baş redaktor:
Tapdıq Abbas

Birinci müavin:
Akif Nəsirli

Baş redaktorun müavini:
Şahnaz Salehqızı

Sosial-siyasət şöbəsinin müdiri:
Mahir Abbaszadə

İnformasiya şöbəsinin müdiri:
Röyal Əsədli

Qarabağ bürosunun redaktoru:
Elman İsrafiloğlu

www.paralel.az saytının operatoru
Murtuza Sudeyifoğlu

Bölgə müxbirləri:
Vaqif Cəmiloğlu
Rəşid Nəcəfli
Əlizadə Nəhmədağaoğlu
İlkin Əsədzadə

Qəzet 16 fevral 2002-ci ildən çıxır.
Ünvan: AZ 1073, Azərbaycan, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, 6-cı mərtəbə "Azərbaycan" nəşriyyatı
Tel: **510 15 07**, Fax: **510 15 06**
E_mail: paralel_qazeta@mail.ru
Qəzet "Son Dakika" MMC-nin mətbəəsində çap olunub.
Əlyazmalara rəy verilmir və geri qaytarılmır.
Qeydiyyat №257
Sifariş: **2185** Tiraj: **2050**